# İMTAHANIN SİRRİ

**Hər bir kəs ölümü dadacaqdır. Biz sizi şər və xeyirlə imtahana çəkərik. Və siz ancaq Bizim hüzurumuza qaytarılacaqsınız! (Ənbiya surəsi 35)**

**HARUN YƏHYA**

**Birinci nəşr: yanvar 2000**
**İkinci nəşr: iyul 2001**
**Üçüncü nəşr: avqust 2001**
**Dördüncü nəşr: oktyabr 2005**
**Beşinci nəşr: yanvar 2006**
**Altıncı nəşr: iyul 2006**
**Yeddinci nəşr: mart 2007**
**Səkkizinci nəşr: noyabr 2007**
**Doqquzuncu nəşr: may 2009**

**ARAŞTIRMA**
**YAYINCILIK**

Talatpaşa Mah. Emirgazi Caddesi
İbrahim Elmas İşmerkezi
A Blok Kat 4 Okmeydanı - İstanbul
Tel: (0 212) 222 00 88

Nəşr: Entegre Matbaacılık
Sanayi Cad. No: 17 Yenibosna-İstanbul
Tel: (0 212) 451 70 70

**www.harunyahya.org - www.harunyahya.net**

**GİRİŞ**

**DÜNYA İMTAHAN YERİDİR**

**İMTAHANIN SİRRİ**

**ÇƏTİN ANLARIN MÜSƏLMANI**

**CAHİL  İNSANLARIN ÇƏTİNLİKLƏR QARŞISINDA DAVRANIŞLARI**

**İMTAHAN SON ANA QƏDƏR DAVAM EDİR**

**NƏTİCƏ**

**TƏKAMÜL YALANI**

**OXUCUYA**

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allah`ın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allah`ın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allah`ın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allah`ın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

**www.harunyahya.org www.harunyahya.net www.adnanoktar.az www.a9.com.tr**

## YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allah`ın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah`ın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan

götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allah`ın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allah`ın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# YARADILIŞ HƏQİQƏTİ

Bu yazını oxumağı təmin edən göz hüceyrələrinizin qidalanmaq üçün qlükozaya ehtiyacı var. Bunun üçün qanınızda nə qədər şəkər olduğunu hesablayan, şəkərin miqdarını sabit tutan bir sistem quraşdırılıb bədəninizə yerləşdirilmişdir. Allah`ın yaratdığı mükəmməl nizam sayəsində sizin düşünməyinizə və planlamağınıza ehtiyac qalmadan bütün orqanlarınız bir-biri ilə uyğunluq içində işləyir.

www.yaratilis.com

Bir quş tükündə sapın hər iki tərəfindəki damarlarda 400-ə qədər kiçik çəngəl olur. Bu çəngəllərin hər birində iki-iki olmaqla, cəmi 800-ə qədər kiçik qarmaq var. Öndəki qarmaqlarda daha 20 cüt qarmaqcıq var. Bu qarmaqcıqlar parçaları bir-birinə bağlayan bağ kimi iki tükü bir-birinə bağlayır. Tək bir tükdə yaradılan təxminən 300 milyon ədəd kiçik qarmaq Allah`ın sənətinin dəlillərindəndir.

www.canlilarinevrimi.com

**(Quranın) haqq olduğu onlara aydın olana qədər, Biz dəlillərimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik. Məgər Rəbbinin hər şeyə şahid olması kifayət deyil? (Fussilət surəsi, 53)**

www.bitkidunyasi.net

Arılar şandakı istiliyi həmişə eyni temperaturda saxlayırlar. Hava çox soyuq olduqda pətəyin əhatəsinə toplaşır və bədən istilikləri ilə yumurtaları isidirlər. Temperatur artdıqda isə arıların bir qismi hərarəti aşağı salmaq üçün qanadlarını hərəkət etdirməyə başlayırlar. Çox isti günlərdə arılar su damcıları gətirir və bunları sürfə olan hüceyrələrin üzərinə səpirlər.

www.darwinistneleridusunmez.com

Cənub qütb bölgəsində yaşayan pinqvinlərin bədən temperaturu təxminən $40^0$C-dir. Yaşadıqları mühitin temperaturu isə bəzən $-40^0$C-yə çatır. Bu da pinqvinlərin $80^0$C-lik temperatur fərqinə dözə bilmələri deməkdir. Bu dözümlülüyü təmin edən heyvanın dərisinin altında olan qalın yağ təbəqəsidir. Bu təbəqə bədən temperaturunun itməsinə mane olur.

www.evrimefsanesi.com

**Şübhəsiz ki, toxumu da, çərdəyi də Allah çatladır. O, ölüdən diri çıxarır, diridən isə ölü çıxarır. Budur Allah! Siz necə də döndərilirsiniz! (Ənam surəsi, 95)**

Hindqozunun toxumları su ilə daşınır. Toxum daşımanın təhlükəsiz olması üçün sərt bir qabığın içinə yerləşdirilmişdir. Bu sərt qabığın içində uzun səyahət üçün lazım olan hər şey hazırdır. Hindqozu toxumlarının ən diqqətçəkən xüsusiyyətlərindən biri isə suda üzə bilmələrini və batmamalarını təmin edən hava boşluqlarına sahib olmasıdır.

www.islamadavet.org

Dərilərindəki rəng maddələri sayəsində buqələmunlar olduqları mühitlə uyğunluq təşkil edərək düşmənlərindən qorunurlar. Allah buqələmunlarda simpatik sinir sisteminin ifrazı ilə piqmentlərin dağılmasını və toplanmasını təmin edən nizam yaratmışdır. Çox ağır hərəkət etməsinə baxmayaraq, buqələmun bu sayədə təhlükəsiz şəkildə həyatını davam etdirə bilir.

www.darwinizmdini.com

Bir insan suda balığın gördüyü kimi görə bilməz, çünki insan gözü su altında dəqiq görməni təmin edəcək xüsusiyyətlərə sahib deyil. Məsələn, balıqlardakı kimi linza sistemi yoxdur və ya insan gözü balığın gözü kimi yumru və sərt deyil. Buna görə də suda balıqlar kimi dəqiq görmək qabiliyyəti təmin edə bilməz. Allah hər canlını olduğu mühitə ən uyğun şəkildə yaratmışdır.

www.dinsizliginkabusu.com

Fosil qeydləri bitkilərin  təkamül keçirmədiyini, hər hansı bir xəyali əcdada sahib olmadıqlarını göstərir. Balıqların həmişə balıq, quşların həmişə quş, hörümçəklərin həmişə hörümçək, şam ağaclarının həmişə şam olduqları kimi, palıd ağacı da  həmişə palıd olaraq var olmuşdur. Rəsmdə görülən 45 milyon illik palıd yarpağı fosili də bu həqiqəti təsdiq edir.

www.Allahkorkusu.com

Dövr: Kaynozoy dövrü, Eosen mərhələsi

Yaş: 45 milyon il

Bölgə: White River, Wyoming, ABŞ

Dəniz şabalıdları dünyanın bütün dənizlərdə rast gəlinən, *Exinoid* sinfinə daxil olan tikanlı dəniz canlılarındandır. Təxminən 300 milyon illik dəniz şabalıdı fosilləri bu canlıların kompleks quruluşları ilə yüz milyonlarla ildir var olduqlarını göstərir. Bu zaman zərfində quruluşlarında bir dəyişiklik olmamış, hər hansı bir ara mərhələdən keçməmişlər.

www.genclerdarwinistleresorun.com <http://www.genclerdarwinistleresorun.com>

Dövr: Karbonifer dövrü

Yaş: 306-299 milyon il

Bölgə: ABŞ

*Bivalve* ikitaylı molyusklardan olan midiya və istridyə kimi canlıdır. Bu dövrdə yaşayan formaları ilə milyonlarla il əvvəl yaşayan formaları arasında heç bir fərq yoxdur. Bu vəziyyət təkamülçülərin irəli sürdüyü mərhələli təkamül iddiasını heç bir mübahisəyə yer vermədən əsassız edir.

www.yasayanfosiller.com

Dövr: Kaynozoy dövrü, Miosen mərhələsi

Yaş: 13 – 12,5 milyon il

Bölgə: Calvert, Maryland, ABŞ

37 – 23 milyon yaşında dovşanla günümüzdə yaşayan dovşanlar arasında heç bir fərq yoxdur. Milyonlarla ildir dəyişməyən dovşanlar təkamül keçirmədiklərini, özlərini uca Allah`ın yaratdığını söyləyirlər.

www.cehennemazabi.com

Dövr: Kaynozoy dövrü, Oliqosen mərhələsi

Yaş: 387 – 23 milyon il

Bölgə: White River, Wyoming, ABŞ

Yüz milyonlarla illik fosillər canlıların heç bir dəyişiklik keçirmədiyini sübut etmişdir. Rəsmdəki 95 milyon illik tülkü kəllə skeleti fosili kimi bütün fosillər darvinizmin axmaqlığını nümayiş etdirir.

www.altincag.com

Fosil qeydlərində bütün canlılar həmişə ən mükəmməl halları ilə və tam olaraq vardır. Kəllə skeletləri, onurğa, əl və ayaq quruluşlarında heç bir yarım və nöqsan qalmış xüsusiyyət yoxdur. Fosillər pandaların həmişə panda olaraq var olduğunu və hər hansı bir təkamül keçirmədiyini sübut etmişdir.

www.ahirzaman.net

Rəsmdə ənbər içində fosilləşmiş arı fosili görürük. Bu canlıların günümüzdəki nümunələri milyonlarla il əvvəl yaşayan nümunələrindən fərqsizdir. İki rəsm müqayisə edildikdə, aradakı mükəmməl bənzərlik dərhal aydın olur.

www.belgeseller.net

Dövr: Kaynozoy dövrü, Miosen mərhələsi

Yaş: 25 milyon il

Bölgə: Dominikan Respublikası

Soldakı rəsmdə ənbər içində fosilləşmiş 25 milyon illik iynəsiz arı, aşağıda isə iynəsiz arının günümüzdəki nümunələrindən birini görürük.

*Tettigoniidae* sinfinə daxil  olan çöl çəyirtkələrinin çoxu tropik bölgələrdə yaşayırlar. Çöl çəyirtkələri milyonlarla ildir dəyişmədən eynilə qalıblar. Rəsmdə fosili görünən 128 milyon yaşındakı çöl çəyirtkəsi də bu həqiqətin dəlilidir.

www.Allahinisimleri.net

Rəsmdə görünən 54 – 37 milyon illik sümüklü durna balığı ilə bu gün dənizlərdə yaşayan həmin canlılar arasında heç bir fərq yoxdur. Bu fərqsizlik darvinistlərin açıqlaya bilmədiyi vəziyyətdir və yaradılış həqiqətini bir daha sübut edir.

www.yaratilismuzesi.com

Dövr: Eosen dövrü

Yaş: 54 - 37 milyon il

Bölgə: Green River, Lincoln Country, Wyoming, ABŞ

Üstdə, solda 108 – 92 milyon illik bir sümüklü durna balığı fosili və üstdə, sağda fosildən bir detal, altda canlının günümüzdə yaşayan nümunəsi görünür.

Günümüzdəki istridyələrlə eyni olan 23 – 5 milyon yaşındakı istridyələr təkamül nəzəriyyəsinin iddialarının əsassız olduğunu göstərir. Milyonlarla ildir eyni olan istridyələr təkamül keçirməyiblər, onları Allah yaradıb.

www.dunyasavaslari.com

Dövr: Kaynozoy dövrü, Miosen mərhələsi

Yaş: 23 – 5 milyon il

Bölgə: Cajamarca, Peru

Rəsmdə görünən 165 milyon yaşında olan qoza dilimi daşlaşmış bir meşədən əldə edilmişdir. Qozanın bütün detallarının göründüyü bu fosil nümunəsi bitkilərin təkamül keçirmədiyini göstərən dəlillərdən biridir. Günümüzdəki qozaların sahib olduğu bütün xüsusiyyətlərə eyni formada bundan 165 milyon il əvvəl yaşamış qozalar da sahibdir.

www.kuranahlaki.com

Dövr: Mezozoy dövrü, Yura mərhələsi

Yaş: 165 milyon il

Bölgə: Jaramillo, Santa Cruz, Argentina

Sağdakı rəsm, 165 milyon illik bir qoza fosilinə aiddir. Altda isə bu dövrə aid qoza dilimləri və bir qoza görünür.

Fosil qeydlərində bir çox nümunəsi olan canlılardan biri də xərçənglərdir. Milyonlarla il əvvəl yaşamış xərçənglərlə günümüzdəkilər arasında heç bir fərqin olmadığı fosil tapıntılarının göstərdiyi danılmaz həqiqətdir. Bu həqiqətin sübutlarından biri də rəsmdə görünən 23 – 5 milyon yaşında olan xərçəngdir. Bu xərçəng bu gün yaşayanlarla tamamilə eynidir.

www.sevimlicanlilar.com

Dövr: Kaynozoy dövr, Miosen mərhələsi

Yaş: 23 – 5 milyon il

Bölgə: Rio de la Plata, Argentina

# GİRİŞ

Həyatınızda hər hansı bir şeyi əldə etmək üçün cəhd edib əmək sərf etmişsiniz. Təhsil həyatınızı düşünün. O dövrdə ən çox düşündüyünüz böyük ehtimalla tez-tez qarşılaşdığınız imtahanlardır. Bunların içində ən əhəmiyyətlisi isə, şübhəsiz ki, universitet imtahanıdır. Bəzi gənclər universitet imtahanını həyatının dönüş nöqtəsi hesab edir. Çünki gələcəklərini necə planlaşdıracaqlarını bu üç-dörd saatlıq imtahanın nəticəsində təyin edəcəklərini düşünürlər. Buna görə də illərlə çalışır, yuxusuz qalır, bir çox ictimai fəaliyyətdən, tətil və əyləncədən uzaq durub sadəcə dərs oxuyurlar. Yeganə məqsədləri istədikləri universitetə qəbul olmaqdır. Bu məqsədə çatmaq üçün böyük səbir və əzm göstərirlər.

Həyatındakı ən böyük məqsədi gözəl ev sahibi olmaq olan bir insanı düşünün. Bu evi əldə etmək üçün, əvvəlcə, kifayət qədər maddi gücə sahib olmalıdır. Bunun üçün gecə-gündüz yaxşı bir iş sahibi olmaq, cəmiyyətdə tutduğu mövqeyini yüksəltmək, maddi qazancını artırmaq üçün çalışıb cəhd edir. Belə uzun, çətin, fədakar işdən sonra istədiyi evi almağı, yaxud tikdirməyi və evə girib yaşamağı mümkün olar.

Bu nümunələrdən də aydın olduğu kimi, insan hər hansı bir gözəlliyə, yaxud hədəfə çatmaq üçün bəzən illərlə çalışmalı, qarşılaşdığı çətinliklərə səbir etməli olur. Bundan əlavə, insanın maddi güc, yaxud cəmiyyətdə etibar, şöhrət əldə etmək kimi hədəfləri varsa, bunun üçün də ciddi bir cəhd sərf etməli və bəzi çətinliklərə sinə gərməlidir.

Lakin burada çox əhəmiyyətli bir nüansı xatırlatmalıyıq: yuxarıda saydığımız nümunələr insanın dünyadakı qısa həyatı boyu əldə edəcəyi keçici mənfəətlərlə əlaqədardır. Bunların hamısı ya ölümlə birlikdə, ya da hələ dünyada ikən hər hansı bir səbəblə əlindən çıxa bilər. Məsələn, illərini imtahan günü müvəffəqiyyətli olmaq üçün dayanmadan çalışaraq keçirən gənc bir qəza nəticəsində imtahana girə bilmədən həyatını itirə bilər. İllərlə çalışıb sahib olduğu ev hər hansı bir fəlakət nəticəsində məhv olaraq insanın bütün əməyini yox edə bilər.

Göründüyü kimi, dünya həyatında arzulanan mənfəətlərin hamısı keçicidir. Amma bundan başqa, bir də əsla itməyən, əsla tükənməyən gözəlliklərin, sonsuz nemətlərin olduğu və insanın əbədiyyətə qədər qalacağı gerçək bir həyat vardır. Bu, inanan insanların dünya həyatı boyu çatmaq üçün ciddi cəhd sərf etdiyi, bütün digər mövzulardan daha üstün tutduğu, əsla ağıllarından çıxarmadığı ölümdən sonrakı axirət həyatıdır.

İnsanın sonsuz axirət yurdunu qazanmaq üçün sınandığı yer də dünya həyatıdır. İnsan yer üzündə olduğu müddət ərzində imtahan olunur və bu mövzuda göstərdiyi cəhdlə sınanır. Həyat Allah`ın bizləri sınamaq və öyrətmək üçün yaratdığı keçici bir müddətdir. İnsan bu müddət ərzində düşünmək, Rəbbimizi tanımaq, Onun hökmlərinə tabe olmaq və sadəcə Onun razılığını axtarmaqla məsuldur. Bundan əlavə, bu imtahanda başına gələn hər şeyə ən gözəl şəkildə cavab vermək, səbir etmək və gözəl əxlaq göstərməklə də məsuldur. Hər şeyin Rəbbimizdən gələn bir sınaq olduğunu bilmək, bunlardan zövq almaq, qarşılaşdığı hər hadisəni sevinc və şövqlə qarşılamaq isə dünyadakı imtahanın möminlərə xas olan sirridir.

Şübhəsiz ki, bu sirri qavrayan və bütün həyatını sınandığının şüurunda olaraq keçirən insanlar bitməyən və tükənməyən qazanc əldə edəcəklər.

Bu kitabın məqsədi qəflət içində heç düşünmədən həyatlarını davam etdirən insanlara bu gerçəkləri bildirməkdir. Dünyada özlərinə məqsəd hesab etdikləri şeylərin hamısından daha böyük məqsədlərinin olmağını xatırlatmaqdır.

# DÜNYA İMTAHAN YERİDİR

İnsan bütün canlılar kimi Allah tərəfindən bir məqsədlə yaradılmışdır. İnsanın yaradılış məqsədini və dünya həyatında necə yaşayacağını öyrənə biləcəyi qaynaq Allah`ın qullarına rəhbər olaraq endirdiyi Qurandır. Allah "Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz Bizə qaytarılmayacaqsınız? (Muminun surəsi 115)" ayəsində insanların müəyyən bir məqsədlə yaradıldığını bildirmişdir. Bu məqsədin nə olduğu isə başqa ayələrdə izah edilmişdir. İnsanın yaradılış məqsədi "…insanları ancaq Mənə ibadət etmək üçün yaratdım. (Zariyat surəsi 56)" ayəsində xəbər verildiyi kimi Allah`a qulluq etməkdir.

Sadəcə Allah`a ibadət etmək üçün yaradılan insanın qarşısında təxminən altmış-yetmiş illik qısa ömür vardır. Bu ömür, eynilə, qum saatında olduğu kimi heç dayanmadan axır, insan axirətə doğru addımlayır. Hər kəs özü üçün təyin olunmuş müddət ərzində yer üzündə qalacaq. Bu

vaxtın məlumatı Allah qatında gizlidir. İnsanın həyatı heç kimin dəyişdirə bilməyəcəyi şəkildə, Allah tərəfindən yazılmış qədər üzrə davam edir.

Dünya üzərindəki hər şey vaxtı gələndə yox olacaq. Açıq-aşkar olan həqiqət isə "… dünya həyatı axirət həyatı ilə müqayisədə çox cüzi bir şeydir. (Rəd surəsi 26)" ayəsində də bildirildiyi kimi, sonsuz axirət həyatının yanında dünya həyatının çox qısa olduğudur. Çünki dünyada hər şey köhnəlməyə, yaşlanmağa və yox olmağa məhkumdur. Zaman hər kəsi və hər şeyi mütləq təxribata uğradır və bu keçici dünyaya bağlananlar böyük itkiyə məruz qalırlar.

Böyük İslam alimi Bədiüzzaman Səid Nursi də əsərlərində dünya həyatının keçici məkan olduğunu və insanın bu dünyada axirəti üçün ciddi bir cəhd göstərməli olduğunu belə ifadə etmişdir:

*Dünya bir mehmanxanadır. İnsan orada çox az qalacaq və vəzifəsi qonaq olmaqdır və qısa bir ömürdə əbədi həyatına lazım olan ləvazimatı tədarük etməklə mükəlləfdir.*[1]

İnsanın dünya həyatındakı qısa ömrünü "keçici qonaqlıq" olduğunu bildirən Səid Nursi başqa nümunədə: "İnsana varlığı heyvan kimi dünya həyatını qazanmaq üçün verilməmişdir", - deyir və bu şəkildə davam edir:

*Ey nəfsim və ey dostum! Ağlınızı başınıza yığın. Ömür sərmayənizi və həyat qabiliyyətinizi heyvan kimi, hətta heyvandan daha aşağı dərəcədə bu keçici həyat və maddi ləzzətlər uğrunda xərcləməyin. Yoxsa sərmayə cəhətdən ən üstün heyvandan əlli dərəcə yüksək olduğunuz halda, ən aşağıda olanından əlli dərəcə aşağı düşərsiniz.*[2]

Bədiüzzamanın da ifadə etdiyi kimi, üstün xüsusiyyətlərlə nemətləndirilmiş, ağıl, vicdan və sağlam fikir sahibi bir varlıq olan insanın yaradılış məqsədinin əskikliklərlə dolu olan bu qısa dünya həyatında keçici mənfəətlər əldə etmək olmadığı çox açıqdır. İnsan burada sınanır və son hədəfi də sonsuz axirət gözəlliyini qazanmaqdır.

İnsan dünyada qarşılaşdığı hadisələrə göstərdiyi davranışlarla, sahib olduğu əxlaqla və qəlbindəki niyyəti ilə sınanır və sadəcə: "İman etdim", - deməsi kifayət deyildir. İmanı davranışlarına da əks olunmalıdır. Çünki qiyamət günündə gizli, yaxud açıq olan həyatına aid hər şey meydana gətiriləcək, çox həssas haqq-hesab gedəcək. Bu hesabda "… xurma çərdəyindəki tel qədər (Nisa surəsi 49)" belə haqsızlığa məruz qalmayacaq. Etdiyi yaxşılıqları çox olanlar sonsuz gözəlliklərlə bəzənmiş cənnət yurdu ilə mükafatlanacaq, pisliyi və zülmü seçənlər isə sonsuz cəhənnəm əzabı ilə qarşılıq görəcəklər. Çünki Allah bu qısa həyatı insanları sınaqdan keçirərək yaxşı və doğru olanları digərlərindən ayırd etmək üçün yaratmışdır. "Mülk" surəsində bu həqiqət belə bildirilir:

**Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur... (Mülk surəsi 2)**

## Dünya həyatına qarşılıq axirəti satın almaq

Din əxlaqından uzaq olan insanların yanıldığı mövzulardan biri bu dünyadakı həyatı qalıcı olaraq düşünmələri və imtahan olunduqlarını unutmalarıdır. Dünyada belə qəflət içində yaşayan insanlara təsir edən, diqqətlərini çəkən bir çox gözəllik vardır. Axirətin unudulduğu cəmiyyətlərdə insanlar doğulduğu andan etibarən bəzəkli görünən bu dəyərləri əldə etməyə çalışırlar. Allah insanları dünyaya həvəslə bağlayan bu bəzəkləri Quranda belə təsvir etmişdir:

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah dərgahındadır. De: "Sizə bunlardan daha yaxşısı barədə xəbər verimmi? Allah`dan qorxanlar üçün Rəbbi yanında (ağacları) altından çaylar axan, içində əbədi qalacaqları cənnət bağları, pak zövcələr və Allah`ın rizası vardır". Allah qullarını görür. (Ali-İmran surəsi 14-15)**

Yuxarıdakı ayələrdən aydın olduğu kimi, insanların dünyaya bağlılıqları müxtəlifdir. Amma bunları əldə etməyin faydası yoxdur. Çünki əsl həyat sonsuzadək davam edən axirət yurdudur. "Kəhf" surəsində insanların həvəslə bağlandığı dünya həyatının həqiqəti belə bir bənzətmə ilə ən hikmətli şəkildə təsvir edilmişdir:

**Onlara dünya həyatını misal çək. Bu, göydən göndərdiyimiz yağışa oxşar. Yerdəki bitkilər onunla qarışıb yetişər, sonra isə küləyin sovurub apardığı quru çör-çöpə dönər. Allah hər şeyə qadirdir. Var-dövlət və övladlar dünya həyatının bərbəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin dərgahında savab və ümid baxımından daha əfzəldir. (Kəhf surəsi 45-46)**

Bu ayələrdə də xəbər verildiyi kimi, dünyaya aid hər cür bəzək, zənginlik, gözəllik, yoldaşlar, evlər, ləl-cavahirat, mövqe, şan-şöhrət sadəcə keçici əyləncədən başqa bir şey deyildir. Bunların hamısı mütləq surətdə yox olacaqdır.

Lakin insanların böyük hissəsi bunların keçici olduğunun fərqinə varmır, əksinə, bunlara qapılıb əylənirlər. Kimisi daha çox mal-dövlət yığmağa, kimisi insanlar tərəfindən daha çox sevilməyə, kimisi daha gözəl və ya yaraşıqlı biri ilə ailə həyatı qurmağa, kimisi də iş yerində ən müvəffəqiyyətli şəxs olaraq tanınmağa çalışıb cəhd edir. Bütün bunlara elə böyük həvəslə bağlanırlar ki, sonsuz axirət həyatını tamamilə unudurlar. Ölümü yox olmaq olaraq düşünür və ölümdən sonrası üçün hazırlıq görmürlər.

Halbuki, Bədiüzzaman Səid Nursinin də söylədiyi kimi, ölüm yox olmaq deyil, əksinə, dünyada yaşanan imtahanın sona çatdığı və edilənlərin qarşılığının alındığı yerdir:

*Kainatdakı yox olmaq, ayrılıq, yoxluq zahiridir. Gerçəkdə ayrılıq yoxdur, qovuşma vardır. Yox olma və yoxluq yoxdur, yenilənmə vardır. Və kainatdakı hər şey bir növ sonsuza qədər var olmağa qadirdir. Ölüm bu keçici aləmdən sonsuz aləmə getməkdir. Ölüm hidayət əhli və Quran əhli üçün o biri aləmə gedən dostlara qovuşma vəsiləsidir. Həqiqi yurdlarına girməyə vasitədir. Həm dünya zindanından cənnət bağçasına dəvətdir. Həm Rəhmani-Rəhimin fəzlindən öz xidmətinə qarşılıq ödəniş almaqdır. Həm həyat vəzifəsinin çətinliyindən bir tərxisdir. Həm də qulluq və imtahanın təlim və təlimatından bir fasilədir.*[3]

Bədiüzzamanın yuxarıdakı sözlərində də ifadə etdiyi kimi, dünyanı gerçək yurd zənn etmək böyük qəflətdir. Çünki sonsuzluğun yanında dünya həyatının müddəti tək bir an hökmündə belə

deyil. Bədiüzzaman başqa ifadəsində dünyanı axirətdən üstün tutmağın nə qədər ağılsız davranış olduğuna bu nümunə ilə diqqət çəkmişdir:

*Əbədi həyatı zəhərləyəcək və pozacaq tərzdə sırf bu keçici həyata bağlanmaq ani bir şimşəyi, daimi olan günəşdən üstün tutmaq kimi divanəlikdir.*[4]

Bu həqiqətin şüurunda olan müsəlmanlar ölümlə birlikdə dünyadan ayrılmağı Quran əxlaqından uzaq insanlar kimi üsyanla deyil, şövq və həyəcanla qarşılayırlar. Dünyada etdikləri gözəl əməllərin qarşılığını Allah`dan sonsuz axirət həyatlarında alacaqlarına ümid edirlər. Axirətdə cənnət kimi sonsuz gözəlliklər və incəliklərlə dolu bir məkana qovuşma ümidinin şövqü və həyəcanı içində yaşayırlar.

Dünyaya onu əbədi həyat yeri zənn edərək həvəslə bağlananların vəziyyəti bir ayədə belə xəbər verilmişdir:

**Onlar doğru yolun əvəzinə azğınlığı, bağışlanmanın isə əvəzinə əzabı satın alan şəxslərdir. Onlar (cəhənnəm) oduna necə də səbirlidirlər! (Bəqərə surəsi 175)**

Başqa ayədə də imanı əldən verib küfrü alanlar olaraq bildirilən bu insanlar böyük səhvə yol verirlər. Bu kəslərin necə itkiyə yol verdiklərini anlamaq üçün belə bir nümunə verə bilərik:

İki insan düşünün. Bunların ikisinə də böyük sərmayə verilsin və necə xərcləyəcəklərinin qərarı da özlərinə buraxılsan. Onlardan biri əlindəki bütün imkanları saçıb-sovursun və əlində bir müddət sonra heç bir şey qalmasın. Şübhəsiz, bu adam belə vəziyyətdə -geriyə dönməyin mümkün olmadığının fərqinə vardığında- çox böyük peşmanlıq yaşayar. Digər adam isə əlindəki sərmayəni qalıcı və insanlara faydalı şəkildə xərcləsin, əldə etdiyi bütün gözəlliklər həm özü, həm də insanlar üçün qazanc olsun.

Dünyada insana verilən bütün mal, mülk, mədəniyyət, şöhrət, etibar, gözəllik və daha bir çox nemət də axirətə hazırlanmaq üçün verilən fürsətdir. İman edən şəxs bu fürsətləri ən ağıllı şəkildə qiymətləndirər.

İnkar edənlər isə əlindəki sərmayəni boş yerə xərcləyən insana bənzəyir. İnkarçılar dünya həyatında özlərinə verilən qısa müddəti məqsədsiz şəkildə xərcləyir və sonra sonsuz axirət həyatında böyük bir itki içində olurlar. Bu insanların vəziyyəti Quranda belə xəbər verilir:

**De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər. Onlar Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını inkar edən, buna görə də bütün əməlləri boşa çıxan kimsələrdir. Odur ki, qiyamət günü Biz onlara əhəmiyyət verməyəcəyik". (Kəhf surəsi 103-105)**

Sadəcə dünya həyatına razı olmayan və axirət həyatının əbədi olduğunun şüurunda olan kəslər bu həyatın keçici olduğunu bildikləri üçün sonsuz cənnət gözəlliklərini qazanmağa çalışırlar. Onlar bu ticarətə görə, böyük qazanc içindədirlər. Allah onları böyük bir əcrlə müjdələmişdir:

**Doğrudan da, Allah möminlərdən cənnət müqabilində onların canlarını və mallarını satın almışdır.… (Tövbə surəsi 111)**

**...Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur. (Tövbə surəsi 111)**

## İnsan xeyir və şərlə imtahan olunur

İnsanların həyatları boyu müxtəlif şəkillərdə sınanacağını kitabın başında da ifadə etmişdik. Quranda bu sınaqların xeyirlə olduğu kimi, şərlə də ola biləcəyi bildirilir:

**Səndən əvvəl də heç bir bəşərə ölümsüzlük nəsib etmədik. Məgər sən öləcəksən, onlar həmişəlik qalacaqlar?! Hər kəs ölümü dadacaqdır. Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz ancaq Bizə qaytarılacaqsınız! (Ənbiya surəsi 34-35)**

Ayələrdə xəbər verildiyi kimi, insan hər cür hadisə ilə sınana bilər. İnsan bolluq, zənginlik, nemət içində ikən də Allah`ın razı olacağı gözəl əxlaqı göstərməli, hər davranışında Allah`a yönəlib Onun əmr və tövsiyələrinə çox böyük həssaslıq göstərməlidir. Çünki bolluq dünyanın keçici bəzəklərinə aldanan insan üçün fitnə mövzusu, sınaq, unutdurub-yanıldan amil ola bilər. Amma imanlı bir insan nə qədər böyük nemətlər içində olursa-olsun, əsla Allah`a qarşı nankorluq etməz.

İnsan bundan əlavə xəstəliklərlə, fəlakətlərlə, inkarçılardan gələn müxtəlif təzyiqlərlə, incidici söz, böhtan, tələ, kimi hadisələrlə də imtahan oluna bilər. Lakin müsəlman bunların hamısının imtahanın bir hissəsi olduğunu bilir və bunlara səbir göstərməyin gözəlliklərə açılan qapı olduğunu unutmur.

Bu insanlar qeyd etdiyimiz kimi, dünya qarşılığında axirəti satın alaraq özləri üçün xeyirli ticarət etmişlər. “Bilin ki, var-dövlətiniz də, övladlarınız da ancaq bir imtahandır. Böyük mükafat isə Allah dərgahındadır. (Ənfal surəsi 28)” ayəsinə uyğun olaraq, sahib olduqları hər şeylə sınandıqlarının şüuruna varmışlar. Canlarının, mallarının, sahib olduqları hər şeyin Allah`a aid olduğunu bildikləri üçün bunlarda meydana gələn azalma və ya artım onların əxlaqına, düşüncə tərzinə və Allah`a olan sədaqətlərinə əsla təsir etməz. Quranda bu insanların gözəl əxlaqını təsvir edən bir çox ayə vardır:

**Lakin (Allah`ın) Elçisi və onunla birgə iman gətirənlər malları və canları ilə cihad etdilər. Onlar üçün nemətlər hazırlanmışdır. Məhz onlar uğur qazananlardır. Allah onlar üçün (ağacları) altından çaylar axan, içində əbədi qalacaqları cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur. (Tövbə surəsi 88-89)**

**Möminlər ancaq Allah`a və Onun Elçisinə iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir! Sadiq olanlar da məhz onlardır. (Hucurat surəsi 15)**

Ayələrdə diqqət çəkildiyi kimi, bu dünya müsəlmanlar üçün Allah yolunda Onun razılığını qazanmaq üçün cəhd edilən, xidmət edilən məkandır. Bədiüzzaman Səid Nursi də dünya həyatının sadəcə xidmət yeri olduğunu, insanın çətinlik və gözəlliklərlə sınaqdan keçiriləcəyini, müsibətlərə, çətinliklərə səbir etməyin mükafatının da çox böyük olacağını bu şəkildə bildirir:

*Bu dünya həyatı imtahan meydanıdır və xidmət yurdudur; ləzzət və mükafat yeri deyil. Madam ki, xidmət yurdudur və qulluq məhəlidir, xəstəlik və müsibətlər dini olmamaq və səbir etmək şərti ilə, o xidmət və qulluğa çox müvəffəqiyyət və qüvvət verər. Və hər bir saatı bir gün ibadət hökmünə girdiyi üçün şikayət etmək deyil, şükür etmək lazımdır. Bəli, ibadət iki qisimdir: birinci qisim müsbət, digəri isə mənfi. Müsbət qismi məlumdur. Mənfi qismi isə xəstəlik və müsibətlərdə zəifliyini və acizliyini hiss edib, Rəhman olan Rəbbinə yönəlib, Onu düşünüb, Ona yalvarıb xalis qulluq edər. Bu qulluğa riya girə bilməz, xalisdir. Əgər səbir etsə, müsibətin mükafatını düşünsə, şükür etsə, hər bir saatı bir gün hökmünə keçər. Qısa ömrü uzun bir ömür olar. Hətta bir qisim var ki, bir dəqiqəsi bir gün ibadət hökmünə keçər.*[5]

Səid Nursinin bu hikmətli izahını ətraflı şəkildə düşünmək çox əhəmiyyətlidir. İnsan Allah`a qulluq etmək, Ona olan təslimiyyətini və bağlılığını hər hadisə qarşısında göstərməklə məsuldur. İnsanın qarşısına çıxan çətinliklərə səbir etməyi də bu bağlılığı göstərməyin yollarından biridir. İnsan dünyada hər cür çətinliklə qarşılaşa bilər, çünki bu Allah`ın Quranda bildirdiyi dəyişməyən qanundur. Bu çətinlik və sıxıntı anları insanın gözləmədiyi zamanlarda da ortaya çıxa bilər və çox uzun müddət davam edə bilər, yaxud belə görünə bilər. Məsələn, insan varlı ikən kasıb ola bilər, müvəffəqiyyətli olduğu mövzuda ümid etmədiyi müvəffəqiyyətsizliklə qarşılaşa bilər, sevdiyi insanı itirə bilər, xəstələnə bilər, şikəst qala bilər… Amma bunların hamısı bu insan üçün sınaqdır və Allah belə sınaqlara səbir edən qullarını sonsuz gözəlliklə müjdələmişdir.

Buna görə də insan dünya həyatındakı -axirəti üçün çox qiymətli olan- hər gününü, hər saatını, hətta hər dəqiqəsini və saniyəsini çox yaxşı qiymətləndirməlidir. Etdiyi hər işdə, hər hərəkətdə "Allah`ı ən çox necə razı edərəm?" sualının cavabını axtarmalıdır. Vacib olan odur ki, insan dünyaya bağlanıb axirəti unutmasın. İnsanın Allah`ın hüzuruna çıxdığı zaman sonsuz gözəlliklərə qovuşmağının yolu budur:

**Hər bir kəs ölümü dadacaqdır. Lakin qiyamət günü mükafatlarınız sizə tam veriləcəkdir. Kim oddan uzaqlaşdırılıb, cənnətə daxil edilərsə, o, uğur qazanmış olar. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir. Siz hökmən malınız və canınızla sınaqdan keçiriləcəksiniz. Sizdən əvvəl kitab verilənlərdən və müşriklərdən bir çox əziyyət verici sözlər eşidəcəksiniz. Əgər səbir edib (Allah`dan) qorxsanız, (bilin ki,) bu, əzmkarlıq (tələb edən) əməllərdəndir. (Ali-İmran surəsi 185-186)**

# İMTAHANIN SİRRİ

İman edən insanların dünyada müxtəlif sınaqlardan keçiriləcəyini, malları və canları ilə imtahan ediləcəyini, inkarçıların müxtəlif tələləri ilə qarşılaşacağını və əsassız böhtanlara məruz qalacağını Allah Quranda xəbər vermişdir. Yəni saleh möminlər həyatın hər dövründə bəzi çətinliklərlə qarşılaşa bilərlər. Vacib olan odur ki, insanlar bu çətin anlarda Quran əxlaqını yaşasın, hər an Allah`ı zikr etsin, içində olduğu vəziyyətə şükür edib, hamısında xeyir və gözəllik olduğunu görə bilsin.

Bu deyilənlərin rahat mühitdə, bolluq və nemətlər içində ikən edilməsi çətinlik anına görə, şübhəsiz, daha asandır. Ancaq müsəlmanın imanının gücünü göstərən ən əhəmiyyətli xüsusiyyətlərdən biri, bu üstün əxlaqını çətin zamanlarda yaşamasıdır. Kasıblıq, aclıq, qorxu, mallardan azalma, xəstəlik, inkarçıların təhdidləri, böhtanları və tələləri kimi hadisələrlə qarşılaşdıqlarında səbir göstərən müsəlmanlar gözəl əxlaqlarının qarşılığını daha gözəli ilə alacaqlar.

Quranda inkarçıların elçilərə və saleh möminlərə qarşı qurduqları tələləri və zorbalıqları ilə əlaqədar bir çox nümunə verilir. Fironun qövmünə qarşı göstərdiyi zorba davranış da buna nümunədir. Allah ayədə bunun sınaq olduğunu bu şəkildə bildirir:

**Bir zaman Biz sizi fironun tərəfdarlarından xilas etdik. (O vaxt) onlar sizə ağır əzablar verir, oğlan uşaqlarınızı öldürür, qadınlarınızı isə sağ buraxırdılar. Bunda Rəbbiniz tərəfindən sizin üçün böyük bir sınaq var idi. (Bəqərə surəsi 49)**

Ayədə də ifadə edildiyi kimi, inkarçıların xeyrə mane olmaq üçün etdikləri hər cür zorbalıq müsəlmanlar üçün imtahandır. İman edənlərin bu çətinliklər qarşısında göstərdiyi üstün əxlaq, cəsarət, əzm onların axirətdə alacağı qarşılığı və dərəcələri artırır. "Bəqərə" surəsində inananların dünyada yaşadığı imtahan və göstərdiyi gözəl əxlaq bu şəkildə təsvir edilmişdir:

**Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver. O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allah`a məxsusuq və Ona da qayıdacağıq!"– deyirlər. Onlara öz Rəbbi tərəfindən tariflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır. (Bəqərə surəsi 155-157)**

Ayələrdə bildirilən təvəkküllü və təslimiyyətli ifadələr bütün müsəlmanlar üçün ən gözəl nümunədir. İnkar edənlərin isə iman edənlərin bu təvəkküllü və səbirli davranışlarını anlamaları mümkün deyil. Çünki onlar iman edənlərin özlərinə bənzədiyini, onların cahiliyyə meyarları ilə düşünüb özləri kimi davrandıqlarını zənn edirlər. Buna görə də bolluq zamanı möminlərin dünyaya meyil salacağını və çətinlik və sıxıntı ilə qarşılaşdıqlarında isə ümidsizlik göstərib inkara sapacağını düşünürlər.

Lakin bu şəkildə düşünənlər çox böyük səhv edirlər. Çünki imtahanın sirrini qavrayan müsəlman üçün çətinliklərə səbir etmək ən böyük gözəlliklərdəndir. Quran əxlaqını yaşayan və bu üstün əxlaqın insanlar arasında da yayılması üçün cəhd edən mömin üçün başına gələn çətinliklər onun doğru yolda olduğunu göstərən işarədir. Bunlar onun şövqünü, sevincini və mübarizə əzmini qat-qat artırır.

Allah Quranda tarix boyu dəyişməyən bəzi qanunların varlığından bəhs edir. İnananların çətinlik və sıxıntı ilə qarşılaşmaları, inkarçıların təzyiqlərinə məruz qalmaları, amma inkarçıların bunun nəticəsində mütləq məğlubiyyətə uğramaları da Allah`ın xəbər verdiyi bu qanunlardandır:

**(Müşriklər) səni yurdundan çıxartmaq üçün az qalmışdı ki, səni o yerdə sıxışdırsınlar. Çünki səni qovduqdan sonra özləri də (orada) ancaq az bir müddət qala bilərdilər. Səndən əvvəl göndərdiyimiz elçilərə qarşı da belə davranmışlar. Sən Bizim qayda-qanunlarımızda heç bir dəyişiklik tapa bilməzsən. (İsra surəsi 76-77)**

Bu, imtahanın sirlərindən biridir. Allah Quranda müsəlmanlara qarşılaşa biləcəkləri bir çox hadisəni əvvəlcədən xəbər vermişdir. Bundan əlavə, müsəlmanlara cənnətə girə bilmələri üçün mütləq keçmişdəkilərin başlarına gələnlərlə sınanacağını da bildirmişdir:

**Yoxsa siz elə güman edirdiniz ki, sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlmədən cənnətə daxil olacaqsınız? Onlara elə sıxıntı və xəstəlik üz vermiş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və onunla birlikdə olan möminlər də: "Allah`ın köməyi nə vaxt (gələcək)?"– dedilər. Həqiqətən, Allah`ın köməyi yaxındır. (Bəqərə surəsi 214)**

## Qədərə təslimiyyət

Dünyadakı imtahan mühitinin bir sirri daha vardır. Bu sirri bilən möminlər qarşılaşdıqları çətinliklərə böyük şövq və sevinclə səbir göstərirlər. Bu sirdə qədər gerçəyi vardır. Müsəlman Allah`ın hər şeyi qədərlə yaratdığını və başına gələnlərin sadəcə Allah`ın diləməsi ilə reallaşdığını bilir. İnsanların həyatını bütün təfərrüatı ilə yaradan Allah`dır. "Ənam" surəsində yer üzündə meydana gələn bütün hadisələrin Allah`ın diləməsi ilə reallaşdığı bu şəkildə ifadə edilir:

**Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru (şey) yoxdur ki, açıq-aydın yazıda olmasın. (Ənam surəsi 59)**

İnsan zamana bağlı olaraq yaşayan və hadisələri yaşadığı andan baxaraq qiymətləndirə bilən varlıqdır. İnsan gələcəyi bilmədiyi üçün qarşılaşdığı hadisələrdəki hikmətləri, gözəllikləri və xeyirləri də görməyə bilər. Lakin zamandan münəzzəh olan və zamanı yaradan Allah zamandan asılı olan bütün varlıqların həyatını zamanın xaricindən görüb bilir. Burada qarşımıza çıxan qədər gerçəyidir. Qədər Allah`ın keçmiş və gələcək bütün hadisələri tək bir an olaraq bilməsidir. Yəni nəticəsi bilinməyən hadisələr sadəcə bizim üçün naməlumdur. Allah bizim bilmədiyimiz bu hadisələrin hamısını bilir. (Ətraflı məlumat üçün baxın: "Zamansızlıq və qədər gerçəyi", Harun Yəhya, Vural Nəşriyyat)

Buna görə də insanın imtahanı, əslində, başı və sonu müəyyən olan imtahandır. Keçmiş, gələcək və içində yaşadığımız an Allah qatında birdir; hamısı olub bitmişdir. Biz isə bu hadisələri ancaq zamanı gələndə yaşayaraq öyrənirik.

Həmin bu qədər elmi inkarçıların bilmədiyi üstün elmdir. Müsəlmanların bütün çətinliklərə, sınaqlara səbir etmələrinə vəsilə olan da bu elmdir. İman edənlər "Allah`ın izni olmadan (heç kəsə) bir müsibət üz verməz. Hər kəs Allah`a iman gətirsə, Allah onun qəlbini haqqa yönəldər. Allah hər şeyi bilir. (Təğabun surəsi 11)" ayəsində də bildirildiyi kimi, başlarına gələn hər şeyin qədərlə reallaşdığını bilməyin rahatlığını və dincliyini yaşayırlar.

Möminlərin imtahanı Allah`ın rəhməti olaraq çox asan yaradılmışdır. Lakin bu asanlıq sadəcə səmimi iman edən və qədərə təvəkkül edənlər üçündür. İman edən, səmimiyyətlə Allah`a təslim olan müsəlman qarşılaşdığı hər görüntünün davamlı olaraq dəyişməsini ibrətlə, həyəcanla, şükürlə, təfəkkürlə izləyir. Bir filmə tamaşa edən insan kimi, rahatlıq içində onun üçün hazırlanan qədəri güvən və sevinclə izləyir. Bəzən hərəkətli, bəzən qorxunc, bəzən nəfsə xoş gələn, bəzən

sakit olan bu görüntülərin hamısında iman zövqü, iman həyəcanı vardır. Qorxunc görüntülər xüsusi hazırlanıb planlaşdırılmışdır. Amma nəticə etibarilə bunların hamısı Allah`ın məlumatında və Onun idarəsindədir.

Qədər gerçəyini bilən, imtahanın bu sirrini qavrayan müsəlman başına gələn hər cür müsibəti, aclığı və yaxud kasıblığı gözəllik olaraq görür və bunlardan çox zövq alır. Çünki bu sınaqlar qarşısında göstərdiyi gözəl əxlaqın Allah qatında çox qiymətli olduğunu bilir. Bu, möminlərə xas zövqdür. Müsəlmanlar belə çətinliklər qarşısında hüzn-kədər, stress, qorxu kimi duyğular yaşamazlar. Çünki Allah`ın xeyir, yaxud şər olaraq görünən bütün hadisələri müsəlmanların xeyrinə yaratdığını bilirlər. Allah ayədə möminlərə "…Allah heç vaxt kafirlərə möminlərin əleyhinə olan bir yol göstərməz! (Nisa surəsi 141)" -deyə bildirmişdir.

Lakin burada doğru qavramalı olduğumuz bir nöqtə vardır: möminlər dünyada hər cür çətinlik və sıxıntı ilə qarşılaşa bilər, mallarını itirə bilər, fiziki olaraq zəifləyə bilər, xəstələnə bilər, yaralana bilər, ölə bilər və ya öldürülə bilərlər. Ancaq bunların heç biri müsəlmanlar üçün şər deyildir. Allah bunlarla iman edən qullarını sınaqdan keçirir və göstərdikləri səbrin qarşılığını da həm dünyada, həm də axirətdə qat-qat verir. Müsəlmanlar bu qısa imtahan nəticəsində sonsuz cənnət həyatı ilə mükafatlandırılırlar.

Bu əhəmiyyətli həqiqətin şüurunda olan müsəlmanlar çətinliklərlə qarşılaşdıqda şövqlənirlər. Möminlərin bu şövqü inkar edənlərin qurduğu tələləri təsirsiz hala salan və müvəffəqiyyətli olmalarına mane olan xüsusi haldır. İnkarçılar möminləri çətin vəziyyətdə qoyduqlarını zənn etdiyi anlarda onlardakı bu sevinc və şövqü görərək onlara əsla zərər verə bilməyəcəklərini də anlayırlar. Üstəlik, müsəlmanların çətinlik anlarındakı davranışları da onların yaşadığı təslimiyyəti və təvəkkülü inkarçılara göstərir. Quranda möminlərin çətinlik qarşısında dedikləri belə bildirilmişdir:

**(Allah) bizə yollarımızı göstərdiyi halda, biz nə üçün Allah`a təvəkkül etməyək? Sizin bizə verdiyiniz əziyyətlərə dözəcəyik. Qoy təvəkkül edənlər ancaq Allah təvəkkül etsinlər". Kafir olanlar öz elçilərinə dedilər: "Sizi ya öz torpağımızdan qovacağıq, ya da mütləq dinimizə qayıdacaqsınız!" Rəbbi də onlara belə vəhy etdi: "Biz zalımları mütləq məhv edəcəyik və onlardan sonra sizi o yerdə sakin edəcəyik. Bu, hüzurumda durmaqdan qorxanlar və təhdidimdən çəkinənlərə aiddir". (İbrahim surəsi 12-14)**

**De: "Allah`ın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O, bizim himayədarımızdır. Qoy möminlər Allah`a təvəkkül etsinlər!" (Tövbə surəsi 51)**

**Şübhəsiz ki, bütün bunlar müsəlmanların Allah`ın yaratdığı qədərə olan təslimiyyətlərinin nəticələridir. Allah`a güvənən insan heç bir qorxu və kədər yaşamaz.**

**Həqiqətən də: "Rəbbimiz Allah`dır!"– deyib sonra düz yol tutanlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Əhqaf surəsi 13)**

**Xeyr! Kim yaxşı işlər görüb Allah`a təslim olarsa, Rəbbi yanında onun mükafatı olar. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi 112)**

**Şübhəsiz ki, Allah`ın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman gətirmiş və (Allah`dan) qorxmuşlar. Dünya həyatında da, axirətdə də onlara müjdə vardır. Allah`ın kəlmələri əsla dəyişməz. Bu, böyük uğurdur. (Yunis surəsi 62-64)**

Allah başqa ayələrində də Özünə inanan və təslim olan qullarının ən möhkəm dəstəkdən yapışdıqlarını bildirmişdir:

**Yaxşı əməl sahibi olub özünü Allah`a təslim edən şəxs ən möhkəm dəstəkdən yapışmış olar. Bütün işlərin sonu Allah`a qayıdır. (Loğman surəsi 22)**

**Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allah`a iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah eşidəndir, biləndir. (Bəqərə surəsi 256)**

**"QƏDƏR İLƏ BAĞLI ƏHƏMİYYƏTLİ MƏLUMATLAR: HƏR ŞEY ALLAH QATINDA OLUB BİTMİŞDİR"**

**ADNAN OKTAR:** *Qədər budur, sonsuz qısa zaman vardır, buna an deyilir. Məsələn, saniyənin milyonda biri zamandır, trilyonda biri zamandır. Lakin Allah sonsuz qısa olan zamanda sonsuz əvvəli və sonsuz sonranı yaradıb bitirmişdir. Biz zər aləmində Allah`a söz verərkən eyni anda həm də dünyada cəhd edirdik. Yəni söz verdiyimiz anda, eyni anda dünyada idik, eyni anda da axirətdəyik. Yəni bir blok pərdə var. Biz bunun içindəyik. Hamısını edib bitirdik. Məsələn, bir yerdə zər aləmində Allah`a söz veririk, bir yerdə hz.Adəmin (əs) palçığı yoğurulur, bir yerdə insanlar cənnətdə, bir yerdə cəhənnəmdə, bu şəkildədir... Baxın, elə düşünürlər ki, Allah bizim nə edəcəyimizi öncədən bilmir və bizi sınayır. Baxaq görək, nə edəcək kimi, haşa. Bu, Allah`ın İlahlıq vəsfinə uyğun olmaz, Allah`lıq vəsfinə uyğun olmaz, belə bir şey olmaz...*

*Biz yaradılmış varlığıq. Allah bizim nə edəcəyimizi bilir. Deyirlər ki, bizə iki yol göstərdi. Allah da bizi, haşa, izləyir, belə deyirlər. Son anda biz bir qərar veririk, son anda sürpriz edirik, amma Allah bilmir (haşa) və biz sürpriz qərarla irəliləyirik. Qardaş, sənin atanın doğumu Allah qatında bitib, ananın doğumu Allah qatında bitib, babanın babasının doğumu və ölümü bitib və sənin də doğumun, ölümün bitib Allah qatında. Cənnətdəki şəxslərdən bəhs edilir Quranda, cənnət həyatından danışılır. Sən nədən danışırsan? Həyat bitib, çoxdan bitib Allah qatında. Bax, cənnətdə necə yaşadığımızı bildirir bizə. Cəhənnəmdə kafirlərin çəkdiyi əzabı bildirir, necə yaşadıqlarını bildirir. Əbu Ləhəbin zövcəsinin də birlikdə olduğunu, cəhənnəm həyatını. Belə olacağını demir ki, Allah. Yaşantını bildirir, var olan bir şeyi bildirir. Buna görə, ayədə "**Allah`ın gücünü, qədrini haqqı ilə təqdir etmədilər**" buyurur, cənabi-Allah. Məsələn, dünyanı çox böyük görür bəzi insanlar, bayağı böyük görür. Qardaşım, daha əvvəl də söylədim, bəlkə, biz cənnət yarpaqlarından, cənnət ağaclarından, oradakı bir yarpağın içində kiçik bir su atomunun elektronunun içində yaşayırıq. Sən çox böyük zənn edirsən, amma bütün aləm, kosmos bəlkə də orada. Allah sonsuz aləmlər yaradır, yəni biz o aləmlərdən biriyik. Allah`ın gücünü bəzi insanlar təqdir edə bilmir... (Cənab Adnan Oktarın 23 oktyabr, 2010 tarixli reportajından)*

## Olub-keçənləri gələcəkdən izləmək

İman edən insanın dünyada imtahan edildiyinin şüurunda olması hadisələri gələcəkdən izləməyin də yolunu açır. Yaxşı, görəsən, olub-keçənləri gələcəkdən izləmək nə deməkdir?

Bir insanın qarşısına nə qədər böyük çətinlik və sıxıntı çıxırsa-çıxsın, bu vəziyyət mütləq keçicidir. Məsələn, insan etmədiyi bir işlə günahlandırılıb haqsızlığa uğraya bilər. Amma həqiqət mütləq ortaya çıxacaq. Əgər haqsızlığa məruz qalan şəxsin çəkdiyi zərər dünyada sona çatmasa belə, hesab günü ona haqsızlıq edənlər mütləq etdiklərinin qarşılığını görəcəklər. Haqsızlığa uğrayan şəxs də bu vəziyyətə səbir etdiyi üçün hesab günü gözəl qarşılıq ümid edə biləcək. Zaman sürətlə keçir və dünyadakı hər hadisə kimi bu hadisə də göz açıb bağlayana qədər keçib gedəcək. Quranda müsəlmanlar üçün hər çətinliklə bərabər asanlıq yaradılacağı xəbər verilmişdir:

**Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir. Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir. (İnşirah surəsi 5-6)**

İman edən insan Rəbbimizin sonsuz ədalətinə güvənir, çətinliyin ardınca gələn asanlığı gözləyir və ümidsizliyə qapılmır. Yaşadığı çətinliklərin istər dünyada, istərsə də axirətdə qarşısına gözəllik olaraq çıxacağını unutmur. Bu, insanın olub-keçənləri gələcəkdən izləyə bilməsidir.

Müsəlman qədərin tamaşaçısı olduğunu bilir. Bu sirri qavramağın nəticəsində hər şeyi təvəkkül, təslimiyyət və səbirlə izləyir. Hadisələrin inkişafına müdaxilə etməyin, mane olmağın, yaxud hadisələrin gedişini dayandırmağın mümkün olmadığının şüurundadır. "…Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə bilmirsiniz. (Bəqərə surəsi 216)" ayəsini əsla unutmur.

Allah qullarına əgər iman ediblərsə, başlarına gələn hər müsibətin sonunun mütləq gözəllik və xeyir olacağını müjdələmişdir. Bu müsibətlər möminin özünü tərbiyə etməsinə, imani mövzularda dərinləşməsinə, əxlaqını gözəlləşdirməsinə, kamilləşməsinə və cənnətdəki dərəcəsinin artmasına vəsilədir.

Unutmaq olmaz ki, bu ruhi hal sadəcə Allah`a səmimi olaraq iman edən və qədərə təslim olan insanların yaşaya biləcəyi haldır. Din əxlaqından uzaq yaşayan insanlar isə qarşılaşdıqları hadisələrdə qədərə təslim olmadıqları üçün ümidsizliyə, qorxuya, həyəcana qapılır və çıxış yolu tapa bilməyəcəklərini düşünürlər. Axirətə inanmadıqları üçün hər zaman narahatlıq və sıxıntı içində yaşayırlar. Bu insanların halı ayədə belə bildirilir:

**Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə rəzalətə salar. (Ənam surəsi 125)**

Ayədə bəhs edilən bu ruhi hal bəzi insanların Allah`ın yaratdığı qədərə təslim olmamalarından qaynaqlanan, özlərinə etdikləri zülmdür. Sonsuz ağıl və qüdrət sahibi Allah`ın insanın qədərini istiqamətləndirməsi, hər şeyin hakimi olması iman edən insan üçün çox böyük nemətdir. Ancaq imanı zəif olan və ya iman etməyən insanlar bu nemətin dəyərini bilməzlər. Buna görə də qədərə təslim ola bilməz və həyatı boyu hər an çətinliklə qarşılaşarlar. Əslində, bu vəziyyət təvəkkülsüzlüyün mənəvi cəzası olaraq dünyada verilən qarşılıqlardan biridir. Bu insanlar özləri özlərinə bilərək zülm edirlər:

**Həqiqətən, Allah insanlara əsla zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər. (Yunis surəsi 44)**

**“ALLAH HƏR ŞEYİ SONSUZ ƏVVƏLDƏ YARADIB BİTİRMİŞDİR. ZAMANLI OLAN BİZİK, BİZ ZAMAN İÇİNDƏ ÖYRƏNİRİK”.**

**ADNAN OKTAR:** *Biz, əslində, qədəri çox sadə izah edirik. Baxın, deyirik ki, an deyilən şey sonsuz qısa zamandır, yəni bir saniyənin, məsələn, milyonda biri deyil, trilyonda biri deyil, katrilyonda biri də deyil, Nə qədərdə biridir? Heç bir şeydə biri, yəni ən qısa zaman, ən qısa zaman vahidi. Sonsuz qısa zaman vahidi. Baxın, sonsuz qısa zaman vahidi içində Allah sonsuz əvvəli və sonsuz sonranı yaradıb-bitirdi, hər şey bitmişdir. Budur, biz buna qədər deyirik, yəni zamanın olmamasına.*

*Zaman sonradan yaradılıb və bizim üçün yaradılıb zaman və məkan. Allah üçün zaman və məkan yoxdur, sonradan yaradıldığına görə; tək bir an içində hamısı olub-bitmişdir. O zaman, onsuz da, məcburi olaraq qədər olur. Yəni cüzi iradə də, külli iradə də, yəni qəza dedikləri hər şeyin hamısı onun içində olub-bitmişdir. Amma zamanı səlis şəkildə qısa izah etmək yaxşıdır, yəni anlamayanlar üçün xülasəsi budur. Bunu bildikdə insan, onsuz da, qədəri də anlamış olur.*

*Allah imtahan etdikdən sonra hadisəni anlamaz yəni, bir şeyi təcrübədən sonra anlamaz Allah. Onsuz da, sonsuz əvvəldə Özü yaratmışdır onu və bitmişdir. Onu bizə göstərir Allah, zamana bağlı olan bizik, yəni bizə özümüzün nə olduğunu göstərir. Yoxsa Allah təcrübə etməyə ehtiyacı olan bir Rəbb deyildir. Sonsuz böyükdür Allah, inşaAllah.*

**APARICI:** Amma tamamilə bizi iradəsiz buraxan bir Yaradıcıdan da söz etmirik, deyilmi?

**ADNAN OKTAR:** *Bizim iradəmiz vardır, amma iradəmizlə etdiyimiz hər şey bizim qədərimizdədir və an içində biz onları edib bitirdik, tək bir an içində. Təbii ki, iradəmiz var, məsələn, baxın, danışırıq, iradəmizlə danışırıq.*

*Xülasə, uzun-uzadı qədərin izah edilməsinə gərək yoxdur, doğrusu, izah etsək də, müəyyən olmaz. Amma tək bir anın olduğunun bilinməsi gərəklidir. Tək bir an içində yaradılmışdır. O zaman hamısını anlamış olurlar, başqa cür, uzun-uzadı oxusa da, səmimi olaraq soruşduqda, həqiqətən, anlamamış olduğunu görürük. “Nə anladın?” –deyirəm, saatlarla oxuduğuna baxmayaraq, yenə bir şey anlamır. Çünki, həqiqətən, mümkün deyil o tərzdə. Ən gözəl anlama şəkli tək bir an içində hər şeyin yaradılıb-bitdiyinin bilinməsidir. Məsələn, biz indi burada uzun-uzadı danışırıq, lakin hələ sənin atan doğulmamışdan əvvəl, onun babası doğulmamışdan öncə sən burada bunların hamısını danışmışdın. Tək bir an içində olub-bitmişdir. Lakin biz burada öz iradəmizlə danışırıq, məsələn, sən dəftərə yazmısan, suallar verirsən, elə görünür. Yenə başdan dünyaya gəlsən, Allah səni uşaqlığına çevirsə, keçmiş dövrə gəlsən, yenidən dünyaya gəlsən də, eyni sualları soruşarsan. Heç bir fərqi olmaz. (Cənab Adnan Oktarın 29 may, 2010 tarixli reportajından)*

## ÇƏTİN ANLARIN MÜSƏLMANI

Kitabın əvvəlindən başlayaraq müsəlmanın imanının gücünü və əxlaqının üstünlüyünü göstərən əlamətin çətinlik anlarında göstərdiyi gözəl davranışlar olduğundan bəhs etdik. Bu üstün əxlaqi xüsusiyyətlərə cəsarət, səbir, təvəkkül, əzm, mətanət, bağışlamaq, fədakarlıq, mərhəmət, vicdan və qərarlı olmaq daxildir.

"Çətin anların müsəlmanı" ifadəsində nəzərdə tutulan hər cür çətinliyə, sıxıntıya, yoxluğa və çatışmazlığa qarşı dözümlü olan və yuxarıda sadalanan xüsusiyyətlərə malik olan insandır. Gözəl əxlaqdan əsla uzaqlaşmayan, hər hadisəni təvəkküllə qarşılayan, hadisələrdəki hikmət və xeyirləri görən, ətrafındakı insanları da eyni üstün əxlaqı yaşamağa dəvət edən insan çətin anların müsəlmanıdır. Bu çətinlik anları da Quranda təsvir edildiyi kimi, iman edənlərin çox şiddətli sınaqlardan keçirildikləri, "O zaman onlar üstünüzə həm yuxarı, həm də aşağı tərəfdən hücum etmiş və gözünüz hədəqəsindən çıxıb ürəyiniz ağzınıza gəlmişdi... (Əhzab surəsi 10)" ayəsində də ifadə edildiyi kimi, şiddətli sıxıntılarla əhatə olunduqları anlardır.

Çətinlik anları deyildiyi zaman cahiliyyə insanının ağlına bəzi nümunələr gəlir. Kimisi üçün bu çətinlik anı təbii fəlakət, kimisi üçün işindən çıxarılmaq, kimisi üçün isə müflisləşməkdir. Halbuki, iman edənlər üçün çətinlik anları daha şiddətli hadisə və vəziyyətləri ifadə edir. Çətinlik anlarındakı yoxluq adi yoxluq deyil, insanın ən vacib ehtiyaclarından belə məhrum qaldığı yoxluq, çətinlik isə insanın gündəlik həyatında yaşadığı çətinliklərdən daha şiddətli çətinlikdir. Quranda təsvir edilən ürəklərin ağıza gəldiyi anlar insanın təxəyyül edə biləcəyi hər cür çətinliyin, xəstəliklərin, fəlakətlərin üst-üstə gəldiyi, müsəlmanların sadəcə: "İman etdim", - dediyi üçün evlərindən çıxarıldığı, yurdlarından sürgün edildiyi, ailələrinə, özlərinə maddi və mənəvi təzyiqlərin edildiyi dövrlərdir.

Quranda elçilərin və saleh möminlərin qarşılaşdığı bu cür çətinliklər nümunə verilmişdir. Əvvəlki hissələrdə də izah edildiyi kimi, saleh möminlər çox şiddətli sınaqlardan keçirilmiş, müxtəlif çətinliklərə sinə gərmişlər. Ayələrdə bu sınaqlar şiddətli fəlakət şəklində ifadə edilir:

**Sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlməmiş behiştə daxil olacağınızımı güman edirsiniz? Onları fəlakət və sıxıntı elə bürümüş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və iman gətirənlər birlikdə: "Allah`ın köməyi nə vaxt gələcək?" – demişdilər. Bilin ki, Allah`ın köməyi yaxındır! (Bəqərə surəsi 214)**

Allah yuxarıdakı ayədə bütün inananların bu çətinliklərlə qarşılaşacağını bildirir və səbir göstərənləri sonsuz gözəlliklərlə müjdələyir. Bu zamanlar çətin anların müsəlmanları ilə asan anların müsəlmanlarının ortaya çıxdığı, bir-birlərindən ayrıldıqları zamanlardır. Çətin anların müsəlmanları bütün çətinlik və sıxıntılara "O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz Allah`a məxsusuq və Ona da qayıdacağıq!" -deyirlər. (Bəqərə surəsi 156)" cavabını verənlərdir.

## Çətin anlarda nəfsin və vicdanın səsi

İnsan çətinlik, yaxud sıxıntı yaşadığı zamanda iki fərqli səs eşidir. Bunlardan biri fədakarlığı, cəsarəti, gözəl əxlaqı və hər zaman Allah`ın dilədiyi şəkildə davranmağı əmr edən vicdanının səsidir. Bu səsi dinləyən şəxs Allah`ın razılığının ən çoxunu tapar, səbri və təvəkkülü seçər. İkinci səs isə "Yusif" surəsinin 53-cü ayəsində də bildirildiyi kimi, pis işləri əmr edən nəfsin

səsidir. Bu səs insana üsyanı, eqoistliyi və qorxaqlığı pıçıldayır. Bu səsi dinləyənlər isə böyük itkiyə məruz qalır və nəfsə təsir edən şeytanı özlərinə dost tuturlar. İnsanların nəfsə uyaraq nələri itirəcəklərini anlamaq üçün şeytanın onlar üzərindəki təsirinin necə olduğunu da bilmək lazımdır. Quranda bu mövzuda ətraflı məlumat verilir və inananlar şeytanın tələsinə qarşı xəbərdar edilir.

Allah hz.Adəmi yaratdığı zaman mələklərə və şeytana ona səcdə etmələrini əmr etmişdir. Mələklər hz.Adəmin qarşısında səcdə etmiş, lakin şeytan qürurlu və kibirli olduğu üçün onun qarşısında əyilməyi rədd etmişdir. Bu üsyanına görə cənnətdən qovulan şeytan Allah`dan qiyamət gününə qədər möhlət istəmişdir. Allah ona bu müddəti vermiş, lakin iman edən qulları üzərində əsla təsiri ola bilməyəcəyini bildirmişdir. Şeytan özünə verilən bu müddət içində insanları müxtəlif vəd və tələlərlə aldadıb, doğru yollarından sapdıracağına dair and içmişdir. Şeytanın bu andı ayələrdə bu şəkildə bildirilir:

**...Sənin düz yolunun üstündə oturub insanlara mane olacağam! Sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən". (Allah) buyurdu: "Oradan mənfur və qovulmuş halda çıx! Onlardan hər kəs sənin ardınca getsə, əlbəttə, cəhənnəmi sizin hamınızla dolduracağam. (Əraf surəsi 16-18)**

**(İblis) dedi: "Məndən üstün tutduğuna bir bax! Əgər qiyamət gününə qədər mənə möhlət versən, az bir qismindən başqa, onun nəslini özümə ram edəcəyəm". (Allah) buyurdu: "Çıx get! Onlardan kim sənə uysa, tam bir əvəz kimi cəzanız cəhənnəm olacaqdır. Onlardan gücün çatdığı kimsələri səsinlə təhrik et, atlı və piyadanı onların üstünə yerit, mallarına və övladlarına şərik ol, onlara vədlər ver. Şübhəsiz ki, şeytan onlara ancaq yalan vədlər verər. (İsra surəsi 62-64)**

Ayələrdə də bildirildiyi kimi, şeytan insanları doğru yoldan ayırmaq üçün hər cür yolu sınayır, şükür etmələrinə və gözəl əxlaq göstərmələrinə mane olmağa çalışır. Bunun nəticəsində də insanların böyük bir hissəsini öz tərəfinə çəkir. Nəfs də şeytanın insanları aldatmaq və doğru yoldan ayırmaq üçün istifadə etdiyi səsdir. Buna görə də çətinlik qarşısında insana hər zaman öz mənfəətini düşündürür, fədakarlığı, şəfqəti və mərhəməti pis və çətin göstərir. "Bəqərə" surəsində şeytanın bu xüsusiyyəti belə təsvir edilir:

**Ey insanlar! Yerdə olan halal və təmiz ruzilərdən yeyin, şeytanın addım izləri ilə getməyin! O, sizin açıq-aşkar düşməninizdir. O, sizə pis və iyrənc işlər görməyi və Allah`a qarşı bilmədiyiniz şeyləri söyləməyi əmr edir. (Bəqərə surəsi 168-169)**

Buna görə də müsəlmanlar çətinlik, sıxıntı yaxud müsibətlə qarşılaşdıqda dərhal vicdanın səsini dinləməlidirlər. Çünki iki seçimdən biri şeytanın tərəfdarlarının yoludur. Bu yolda eqoistlik, mənfəət, öz rahatlığını istəmək, ikiüzlülük, yəni pis əxlaqa aid bir çox xüsusiyyət vardır. Digəri isə saleh möminlərin yoludur. Müsəlmanlar vicdanlarının səsini dinləyər və yaxşı yolu seçərlər.

"İtaət etmək və gözəl bir söz demək. İş qətiləşdiyi zaman Allah`a sadiq olsaydılar, sözsüz ki, onlar üçün daha yaxşı olardı! (Muhəmməd surəsi 21)" ayəsində də bildirildiyi kimi, gözəl əxlaq qətilik tələb olunduğu zamanlarda göstərilməlidir. Çünki insanların böyük hissəsi çətinlik anlarında göstərilən sədaqətin üstün əxlaq xüsusiyyəti olduğunu bilir və belə vəziyyətlə qarşılaşdıqlarında sadiq və güclü olacaqlarına dair and içirlər. Lakin çətinlik anındakı davranışları

əvvəlcə verdikləri vədləri ilə eyni olmaz. Ən kiçik çətinlik qarşısında belə pis əxlaq göstərə bilər, kobudlaşa bilər, sevgi və şəfqət kimi duyğulardan uzaqlaşıb kin və hirslə hərəkət edə bilərlər. Təvəkkülsüz, üsyankar, zalım ola bilərlər. Buna görə də belə zamanlar güclü olanlarla gücsüz olanların bir-birindən ayrıldığı, pis əxlaqın ortaya çıxdığı, imanı zəif olanların özlərini büruzə verdiyi dövrdür. Bu zəif insanlar daha sonra inkarçılara meyillənib onlarla birlikdə müsəlmanların əleyhində fəaliyyət göstərirlər. Bunun kimi nümunələr səmimi və güclü imana sahib müsəlmanların dəyərini qat-qat artırır.

Bunu da xatırlatmaq lazımdır ki, müsəlmanın gündəlik həyatda müxtəlif çətinlik və sıxıntılarla qarşılaşması həm imtahandır, həm də axirətdə qovuşmağı ümid etdiyi cənnət yurdu ilə müqayisə edəcəyi xoşbəxtlik vəsiləsidir. Çətinliklərlə asanlıq, rahatlıq müqayisə edildikdə yaranan yüksək zövqün qaynağıdır. Bundan əlavə, səmimi müsəlman üçün digər möminlərdə ona qarşı təqdir və sevginin artmasına, iman, həyəcan və qibtə kimi  gözəl hisslərə qapılmalarına vəsilə olan gözəllikdir. Dünyada möminlərin o insana qarşı hörmət və sevgilərini artıran, özlərinə nümunə götürmələrini təmin edən, Allah`ın izni ilə imanlarına müsbət təsir edən, inkarçıların isə gizli, yaxud açıq şəkildə təqdirinə layiq olan, faydaları və gözəllikləri çox olan Rəhmani nemətdir.

Qarşılaşdığı hər hansı bir hadisə üçün: "Hər halda, bu qədərə aid deyil", - deyə düşünən insan isə şeytanın təsirindədir. Şeytanın təsiri bu cür vəsvəsələrə səbəb ola bilər. İnsanın imani dərəcəsini çox aşağı salan bu vəziyyət şeytanı sevindirir. Şeytanın vəsvəsəsi ilə bəzən kiçik kimi görünən bir mövzunu qədərdən kənar, Allah`ın rəhmətindən, məlumatından kənar olduğunu zənn etmək və ya unutmaq xəstəlikdir. Mömin bu xəstəliyi diqqətlə, həssaslıqla müalicə etməli və bu xəstəliyə yoluxmaqdan özünü qorumalıdır.

Məsələn, izləmək istədiyi televiziya proqramını izləyə bilməmək və ya qida məhsulunu sifariş verməyi unutmaq kimi hadisələrin hamısında xeyir və hikmət vardır. Bəzən insan bunu incəliyi ilə görür, bəzən də görə bilmir, yaxud çox azını görür. Məsələn, televiziya proqramını izləyə bilməz, lakin bu müddətdə xeyirli xidmət, xeyirli təfəkkür üçün vaxt qazanmış olar. O təfəkkürlə bəlkə də ömür boyu edəcəyi gözəl xidmətinin gücünü artıran məlumata yiyələnər. Və ya bu müddətdə Allah`ı zikr edərək  televiziyadan alacağı savabdan daha çoxunu qazanar. Hər hansı bir qida məhsulunu sifariş verməyi unutduqda isə bu onun xəstəliyinin keçməsinə vəsilə olan pəhriz hökmündə ola bilər. Təzyiqi yüksək olan insan pendir almağı unudub o gün pendir yeməsə, təzyiqi normala düşər. Təvəkkül etdiyi üçün savab qazanar, xeyrə yozduğu üçün Allah`ın razılığını qazanar. Üstəlik, gözəl xasiyyəti və təvəkküllü davranışı möminlərin rahatlığına, sevgisinə vəsilə olar. Bəlkə də gigiyenik cəhətdən təmiz olmayan qida məhsulunu almaqdan  xilas olmuş olar.

Gündəlik həyatda belə nümunələrin sayı çoxdur. Buna görə, bu mövzunun çox yaxşı başa düşmək, unutmamaq lazımdır. İnsanın qarşılaşdığı kiçik və ya böyük hər hadisə qədərdədir. Şeytanın "bunlar gündəlik həyatın təbii ehtiyaclarıdır, qədərlə əlaqəsi ola bilməz" şəklindəki pıçıltısına qarşı möminlər  diqqətli olmalıdırlar. Bu mövzunu yaxşı qavrayıb, yaddaşda saxlamaq, hər hadisəyə, hər şeyə xeyir və hikmət gözü ilə baxıb Allah`ın gözəl planı içində inkişaf edən

bütün hadisələri bu şəkildə qiymətləndirmək axirət və dünya üçün böyük nemətdir. Mömin üçün ağıl, iradə, rahatlıq və dincliyə vəsilə olan həqiqətdir.

## Yaxşılarla pislərin bir-birindən ayrılması

Allah dünyada yaxşılıqla pisliyi, fayda ilə zərəri, gözəlliklə çirkinliyi birlikdə yaratmış, hamısını cənnət və cəhənnəmə gedən yolda sınaq etmişdir. Dünyadakı imtahan müddəti yaxşılarla pislərin, səbir edənlərlə çətinlik qarşısında ümidsizliyə düşənlərin, inkarçı zehniyyətə qarşı mübarizə aparanlarla aparmayanların, nəfsinə tabe olanlarla vicdanının səsini dinləyənlərin bir-birindən ayrıldığı sınaq müddətidir.

Dünya həyatında yaxşılıq və pisliyin bir-biri ilə bu qədər yaxın olmasının bir çox hikməti vardır. Bu hikmətlərdən biri dünyadakı təzad içində yaxşılıqların və gözəlliklərin dəyərinin daha yaxşı başa düşülməsidir. Çünki pislik, çatışmazlıq, yaxud müsibətlər olmasa, insanın gözəlliklərin dəyərini anlaması mümkün deyildir. Məsələn, bir almaz sadə daşların arasına qoyulduğu zaman gözəlliyi və göz qamaşdırıcılığı daha çox bəlli olur.

Yaxşılıq və pisliyin bir yerdə yaradılmasının başqa hikməti də imtahanın sirridir. İnsanlar keçici dünya həyatında yaxşılıq və pisliklərlə sınanırlar. Bu sınaqlarla da aralarındakı dərəcə fərqlilikləri ortaya çıxır, pislərlə yaxşılar bir-birindən ayrılırlar.

Pislərin tərəfində olanların canı ölüm mələkləri tərəfindən vurula-vurula alınacaq, yaxşılar isə gözəllik və məmnuniyyətlə cənnət yurduna dəvət ediləcəklər. Quranda imtahan mühitinin və bütün bu çətinliklərin möminlərlə ürəklərində xəstəlik olanların bir-birindən ayrılması üçün bir yol olduğu bu şəkildə xəbər verilir:

**İki qoşunun üz-üzə gəldiyi gün sizə üz vermiş müsibət Allah`ın izni ilə oldu ki, möminləri aşkara çıxartsın və münafiqləri bəlli etsin. Onlara: "Gəlin, Allah yolunda döyüşün, yaxud müdafiədə durun!"- deyildi. Onlar: "Döyüş olacağını bilsəydik, sizin ardınızca gedərdik", - dedilər. Onlar o gün imandan çox küfrə yaxın idilər. Onlar qəlblərində olmayanı ağızları ilə deyirlər. Halbuki, Allah onların nəyi gizlətdiklərini çox yaxşı bilir. (Ali-İmran surəsi 166-167)**

Ayədə də bildirildiyi kimi, Peyğəmbərimiz (səv) dövründə yaşayan insanların çətinlik qarşısında göstərdiyi əxlaq saleh möminlərlə münafiqləri bir-birindən ayırmışdır.

Bədiüzzaman Səid Nursi də əsərlərində müsibət və çətinlik vasitəsilə yaxşılarla pislərin bir-birindən ayrılmasına çox geniş yer vermiş, bu mövzuda hikmətli nümunələrlə insanlara qiymətli tövsiyələr vermişdir. Bədiüzzaman "şeytanların və pisliklərin yaradılış hikməti nədir?" sualına: "Hər çətinliyin, əskikliyin və şər kimi görünən hadisənin arxasında əhəmiyyətli hikmətlər vardır", - cavabını vermişdir. Bu hikmətlərdən ən başlıcasının isə kömürlə almazın bir-birindən ayrılması olduğunu söyləmişdir.

Bu nümunə hər cür çətinliyin, sıxıntının insandakı gözəl xüsusiyyətləri ortaya çıxardığını izah edir. İmtahan dünyasındakı bu çətin sınaqlarla insanda pis xüsusiyyətlər də ortaya çıxır və beləliklə, onları aradan qaldırmaq üçün fürsət ələ keçir. Məsələn, şiddətli xəstəlik insanın tez ümidsizliyə düşdüyünü, yaxud mənəvi cəhətdən zəiflik göstərdiyini ortaya çıxara bilər. Bu zəifliklərinin fərqinə varan insan dərhal bunları aradan qaldırmağın yollarını axtarar. Beləliklə, xəstəlik onun səhvlərini görməyinə və aradan qaldırmağına vəsilə olur. Bu müsibətdən sonra insanın əxlaqındakı çatışmazlıq aradan qalxır, insanın əxlaqı daha da gözəlləşir. Namuslu hesab edilən insan müflisləşdiyi və ya pulsuz qaldığı zaman qeyri-qanuni yollara üz tutursa, kasıblıq pis bir insanı aşkar etməyə kömək edə bilər. Lakin bu insan kasıblığına və ehtiyac içində olmağına baxmayaraq, əsla harama girmir və namuslu davranırsa, kasıblıq bir insanın, həqiqətən, təmiz və saleh olduğunu ortaya çıxarır.

Bədiüzzaman "Məktubat" adlı əsərində çəkdiyi nümunədə sonradan çox böyük xeyirlər gətirəcəyi bilinən vəziyyətlərdə kiçik çətinliklərə səbir göstərməyin hikməti üzərində durur və belə davam edir:

*Budur, kainatdakı şər, zərər, imtahan, şeytan və zərərlilərin yaradılışı şər və çirkin deyil. Çox vacib bir nəticə üçün yaradılmışlar… İnsanlıq aləmində isə irəliyə getmək və aşağı düşmək dərəcələri sonsuzdur. Nəmrudlardan, fironlardan səmimi övliyalara, peyğəmbərlərə qədər uzun irəliləyiş məsafəsi vardır.*

*Budur, kömür kimi olan aşağı ruhları, almaz kimi olan yüksək ruhlardan ayırmaq üçün şeytanların yaradılışı, məsuliyyət sirri və peyğəmbərlərin göndərilişi ilə imtahan, cəhd və müsabiqə mühiti yaranmışdır. Əgər cəhd və yarış olmasaydı, insan mədənindəki almaz və kömür hökmündə olan qabiliyyətlər birlikdə qalacaqdı. Ən yuxarı zirvədəki Əbu Bəkr (rə) ilə ən alt təbəqədə olan Əbu Cəhlin ruhu bir səviyyədə olacaqdı. Demək ki, şeytanların və pisliklərin yaradılması əhəmiyyətli nəticəyə səbəb olduğu üçün şər və çirkin deyil.*[6]

Bədiüzzamanın bu nümunədə bildirdiyi digər mövzu isə imtahan dünyasının nə qədər qiymətli olduğudur. Çünki pislik və çətinliklər olmasa, insandakı bu gözəl xüsusiyyətlər ortaya çıxmaz, saleh olanların üstün əxlaqı diqqət çəkməz, mənəvi dərəcələrində irəliləyiş olmaz. Buna görə də çətinlik kimi görünən bütün hadisələr insanın əxlaqının gözəlləşməsi, kamilləşməsi, mənəvi olaraq dərinləşib güclənməsi, cənnətdəki dərəcəsinin, mərtəbəsinin yüksəlməsi üçün çox gözəl fürsətlər təqdim edir.

Bədiüzzamanın bu mövzu ilə əlaqədar başqa bir sözü bu şəkildədir:

*Din imtahandır. İlahi məsuliyyət təcrübədir. Nəticədə, yüksək ruhlar ilə alçaq ruhların bir-birindən ayrılması üçündür. Necə ki, mədənə atəş verilir, nəticədə, almazla kömür, qızılla torpaq bir-birindən ayrılır. Eyni şəkildə, bu imtahan yurdunda mövcud olan ilahi məsuliyyət yarışmağa sövqdür ki, insan mədənində olan üstün cövhərlə alçaq ünsürlər bir-birindən ayrılsın. Quran bu imtahan yurdunda təcrübə mövqeyində, yarışma meydanında insanlığın irəliləməsi üçün endirilmişdir.*[7]

Bədiüzzaman almaz kimi gözəl xüsusiyyətlərlə kömür kimi pis xüsusiyyətlərin bir-birindən ayrılması üçün insanın müsibətlərlə və müxtəlif çətinliklərlə şiddətli sınaqdan keçirilməli

olduğunu bildirmişdir. Beləliklə, pis xüsusiyyətlər bir-bir aradan qalxacaq, gözəl xüsusiyyətlər gün işığına çıxıb, parlayacaq.

Bədiüzzaman Səid Nursinin yaxşılıqla pisliyin bir-birlərindən ayrılması mövzusunda verdiyi bir başqa nümunə isə qızıl və mis mədənlərinin məhək daşına vurularaq bir-birlərindən ayrılmasıdır. Daşa vurularaq bir-birindən ayrılan bu iki mədəndən qiymətli olanlar bu üsulla ortaya çıxır, dəyərsiz mis mədən də ələnir. Bu ayrılma prosesində mədənlər daşa şiddətlə vurulmalı və ələkdən keçirilməlidirlər. Beləliklə, qızıl bütün parlaqlığı ilə ortaya çıxır, dəyərini salan mis kimi mədənlərdən təmizlənir.

Bədiüzzamanın daşa şiddətlə vurulmaqdan nəzərdə tutduğu yenə də insanın qarşılaşdığı çətinlik, sıxıntı və müsibətlərin nəticəsində böyük gözəlliklərin ortaya çıxmasıdır. Çətinliyin və sıxıntının şiddəti də insanın imanının gücünü, əxlaqının üstünlüyünü, əzmini, vəfasını, sədaqətini bəlli edir. İnsanı imani və mənəvi cəhətdən kamilləşdirir. Beləliklə, insan, xarakterini zəiflədən xüsusiyyətlərdən təmizlənir, qızıl kimi xarakterə sahib olur. Bədiüzzamanın bu nümunəsi belədir:

*Bu səhər birdən qəlbə xəbərdarlıq edildi ki: sizin bu şiddətli imtahana girməklə bir neçə dəfə: "Qızıl, yoxsa mis", - deyə məhək daşına vurulmağınız (sınanmağınız) və nəfslərinizin hiss və ya hiylələrinin var olub-olmadığını üç-dörd ələklə ələnməsi sırf haqq və həqiqət üçün etdiyiniz xidmətinizdə çox lazımlıdır. Buna görə də ilahi qədər və Rəbbin köməyi buna izin verir. Çünki belə bir imtahan meydanında inadkar, insafsız müxaliflərin qarşısında nümayiş edilməsindən hər kəs anladı ki, heç bir hiylə, heç bir kibir, heç bir məqsəd, heç bir dünyəvi, üxrəvi və şəxsi mənfəət qarışmayaraq, ixlaslı, haqq və həqiqətdən gəlir. Əgər pərdə altında qalsaydı, çox mənalar verilə bilərdi. Daha avam olan iman əhli etimad etməzdi. "Bəlkə bizi aldadarlar", - deyər və vəsvəsə edərdi. Bəlkə bəzi kəslər kimi özlərini satmaq, etimad qazanmaq üçün belə edirlər deyə inanmazdılar. İndi imtahandan sonra ən inadkar vəsvəsəli adam belə təslim olmağa məcbur olur. Zəhmətiniz bir, karınız mindir, inşaAllah.*[8]

Bədiüzzaman bu nümunədə çətinlik və müsibətlərin başqa bir çox hikmətinə də diqqət çəkir. Çətin sınaqlardan keçən, nəfslərinin pis xüsusiyyətlərindən təmizlənən inananların bu üstün əxlaqına digər insanlar da şahid olur. Möminlərin ixlası bu şiddətli sınaqlar qarşısında ortaya çıxır, xidmətlərinin qarşılığında heç bir şəxsi mənfəətlərinin olmadığı bəlli olur. Müsəlmanların cəhdinin sadəcə Allah rizası üçün olduğunu onlar haqqında ürəyində ən çox şübhə olan adam da təsdiq edir, ixlaslı niyyətlərinə bütün insanlar şahid olur. Çətinlik və müsibətlər müsəlmanların doğru yolda olduqlarını göstərir və müsəlmanları digər insanlara tanıdır.

## Çətinlik və sıxıntı anlarında da gözəl əxlaq göstərmək

Bir insanın gündəlik həyatda yaşadığı müxtəlif hadisələr vardır. Normal şərtlər altında insan çox işləsə, yorular; yemək yeməsə, acar; yatmasa, xəstələnər. Bunlar çox təbii hadisələrdir. Allah ayələrində oxşar vəziyyətlərin daha şiddətlilərinin müsəlmanların başına gələ biləcəyini bildirir. Bu, inananların imtahanıdır. Lakin inkarçılarla inananların bu hadisələr qarşısında göstərdiyi əxlaq bir-birindən çox fərqlidir.

Bu çətinliklərə qarşı inkarçılar üsyankar, sərt, ümidsiz və vəfasız olurlar. Çünki onlar axirətə inanmadıqları üçün bütün etdiklərinin bu dünyada qalacağını düşünürlər. "...(Həyat) ancaq bizim dünya həyatımızdır. (Kimimiz) ölür, (kimimiz də) doğulur. Bizi öldürən ancaq zamandır... (Casiyə surəsi 24)" ayəsində bildirildiyi kimi, onlara görə, ölümdən sonra hər şey bitir. Axirətin varlığına inanmadıqları üçün etdiklərinin qarşılığını, rahatlığı və hər cür gözəlliyi bu dünyada yaşamaq istəyirlər. Buna görə də çətinlik və sıxıntılar onlar üçün böyük əzab deməkdir. Səbir göstərə bilmir, təvəkkül edə bilmir, bağışlaya bilmir, fədakarlıq edə bilmir, heç kimə qarşı şəfqət və mərhəmət duya bilmirlər. Çünki bunların qarşılığının olmayacağını və mənfəət əldə edə bilməyəcəklərini düşünürlər. Çətinliklərin insana itkidən başqa bir şey gətirmədiyini düşünüb ümidsizliyə düşürlər.

Halbuki, bu düşüncələr çox yanlışdır. Çünki ölümdən sonra insanın sonsuz həyatının başlayacağı mütləq həqiqətdir. Hesab günündə də hər kəsin etdiklərinin hesabı veriləcək, insanlar bunlarla qarşılıq görəcəklər. Gözəl əxlaq göstərənlər itkiyə məruz qalmayacaqlar, əksinə, böyük qazanc əldə edəcəklər. Hər gözəl söz, saleh əməl, fədakarlıq, vəfa, sədaqət mütləq qarşılığını tapacaq.

Amma din əxlaqından uzaq olan insanlar bu həqiqəti düşünməzlər. Çətin vaxtlarda ümidsiz olmalarının səbəbi baş verənlərin sınaq olduğunu inkar etmələridir. Burada xüsusilə bir nöqtəyə diqqət çəkmək lazımdır: əslində, "…Əgər siz əziyyət çəkirsinizsə, onlar da sizin kimi əziyyət çəkirlər. Halbuki, siz onların ummadıqlarını Allah`dan umursunuz. … (Nisa surəsi 104)" ayəsində də bildirildiyi kimi, iman edənlərlə etməyənlər oxşar müsibət, çətinlik və sıxıntılara məruz qala bilərlər. Lakin inkarçılar Allah`a iman etmədikləri və hər hadisənin Allah tərəfindən yaradıldığını düşünmədikləri üçün möminlərin Allah`dan ümid etdiklərini ümid etməzlər. Fərq onların dünya görüşündədir. İman edənlərin axirətə olan inancı onları inanmayanlardan tamamilə fərqləndirir.

Məsələn, Allah ayələrdə insanları aclıq və yoxsulluqla sınaqdan keçirəcəyini bildirir. Aclıq inkarçı üçün böyük çətinlik, müsəlman üçün isə gözəl əxlaqını göstərmək üçün imtahandır. Təslimiyyət, təvəkkül, səbir belə zamanlarda böyük əhəmiyyət kəsb edir. Ümidsizliyə düşməmək, olanlarda xeyir olduğunu düşünmək müsəlmanın bu imtahanı müvəffəqiyyətlə verdiyinin göstəricisidir.

Bundan əlavə, inkarçılar ilk növbədə həmişə öz mənfəət və rahatlıqlarını düşünürlər. İman edən şəxslər isə hər zaman digərlərini düşünürlər. Daha rahat yer, daha yaxşı yemək, daha gözəl paltar həmişə qarşıdakı döminə təqdim edilir. Səmimi müsəlman soyuq mühitdə özü də üşüdüyü halda, yanındakı müsəlman qardaşını düşünür, onun üzərini örtür, isti içkisini ona verir. Qardaşının sağlamlığını, təhlükəsizliyini, sevincini və rahatlığını təmin etməyə çalışır və bundan böyük zövq alır. O içkini özünün içərkən alacağı zövqlə etdiyi fədakarlıqdan alacağı zövqün bir-biri ilə müqayisə edilməyəcək qədər fərqli olduğunu bilir.

İnsan hər şey qaydasında ikən böyük bolluq və bərəkət içində yaşadığı, sağlam olduğu, yaxud heç bir əskikliyin olmadığı vəziyyətlərdə rahatlıqla gözəl əxlaq göstərə bilər. Lakin insan zərər çəkərkən, yaxud pis hərəkətlə, böhtanla və ya maddi itkilərlə qarşılaşdığı zaman da gözəl əxlaq göstərməli, pisliyə yaxşılıqla cavab verməlidir. İnsanın tox ikən yeməyini, isti mühitdə ikən paltarını verməsi də gözəl əxlaqdır. İkisi də Allah qatında çox qiymətlidir, lakin digəri insanın

səmimiyyətini, ixlasını, imanının gücünü və üstün əxlaq sahibi olduğunu göstərdiyi üçün çox əhəmiyyətlidir və çox qiymətlidir.

İnsan vicdanının səsini dinləyib gözəl əxlaqın fəzilətlərini yaşayarkən, davamlı olaraq pisliyi əmr edən nəfs insana bunları etməklə çətinlik çəkəcəyini pıçıldayır və müxtəlif yollarla mane olmağa çalışır. Üst geyimini verəni üşüməklə, yeməyini verəni ac qalmaqla qorxudan da nəfsdir. Bu, şeytanın Quranda bildirilən taktikasıdır. Ayələrdə şeytanın insanların kasıblara kömək etməyə mane olmağa çalışdığı və onları kasıblıqla qorxutduğu bildirilir:

**Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin yaxşısından xərcləyin. Özünüzə verildiyi təqdirdə, ancaq göz yumub alacağınız pis şeylərdən xərcləməyə çalışmayın. Bilin ki, Allah zəngindir, tərifəlayiqdir. Şeytan sizi yoxsulluqla qorxudur və yaramaz işlər görməyi əmr edir. Allah isə sizə Öz tərəfindən bağışlanma və mərhəmət olunacağını vəd edir. Allah əhatə edəndir, biləndir. (Bəqərə surəsi 267-268)**

Ancaq ayədə də bildirildiyi kimi, mülkün sahibi olan Allah şeytanın bu zəif hiyləsini puç edir və insanları sonsuz lütfü ilə müjdələyir. Allah bu üstün əxlaqın qarşılığı olaraq iman edənlərə dünyəvi heç bir zövqlə müqayisə edilməyəcək mənəvi ləzzət yaşadır. Fədakarlıqdan, səbirdən, vəfadan, comərdlikdən və sədaqətdən alınan bu zövqün həddi-hüdudu yoxdur. Allah “Həşr” surəsində öz ölkələrinə hicrət edən möminlərə evlərini böyük şövq və həyəcanla açan, onların hər cür ehtiyaclarını -özlərinin də ehtiyacı olmasına baxmayaraq- böyük zövqlə qarşılayan müsəlmanların bu üstün əxlaqını tərifləyir:

**Əvvəl yurd salmış və iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır. (Həşr surəsi 9)**

“Tövbə” surəsində isə Allah yolunda çalışarkən sınaq olaraq verilən susuzluq, yorğunluq və aclığın qarşılığı bu şəkildə bildirilir:

**Mədinə əhalisinə və onların ətrafındakı bədəvilərə Allah`ın Elçisindən geri qalmaq, onun canından öncə öz canlarının hayına qalmaq yaraşmaz. Çünki Allah yolunda onlara üz verən elə bir susuzluq, yorğunluq və aclıq, kafirləri qəzəbləndirən elə bir atılmış addım, düşmən üzərində qazanılan elə bir uğur yoxdur ki, bunların müqabilində onlara yaxşı bir əməl yazılmasın. Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz. (Tövbə surəsi 120)**

Ayədə də bildirildiyi kimi, Allah yolunda çəkilən hər cür çətinlik müsəlman üçün saleh əməl hökmündədir. Onsuz da yaradılış məqsədi Allah`a qulluq etmək və saleh əməllər işləmək olan mömin səbrinin və əxlaqının qarşılığını əskiksiz olaraq alacaq, heç bir haqsızlığa məruz qalmayacaq.

Eyni hal xəstəlik, yorğunluq və digər çətinliklər üçün də etibarlıdır. İman edən şəxs etdiklərinin qarşılığını sadəcə Allah`dan gözlədiyi və bu dünyanın keçici bir yer olduğunu bildiyi üçün hər zaman əzmli, qərarlı və mətanətlidir. Çünki Allah ayələrdə öz yolunda cəhd edən möminlərə mənəvi güc və dəstək verəcəyini bildirmişdir. İmtahanın sirrini bilmək isə çətinliklər

qarşısında Allah`ın verdiyi böyük asanlıqdır. Başına gələn hər cür çətinliyin sınaq olduğunu bilən insanı bu çətinliklərin kədərləndirməsi, qorxu və narahatlığa salması və ona ümidsizlik verməsi mümkün deyil.

## İman edənlərin arxasındakı güc

İman edənlərin çətinlik və sıxıntılar qarşısında göstərdiyi şövqlü, həyəcanlı, şən və güclü xarakter iman etməyən, Allah`ın üstün qüdrət sahibi olduğunu bilməyənlərin əsla qavraya bilmədiyi xüsusiyyətdir. "Görəsən, bu şəxslərin arxalarındakı güc nədir?" - deyə düşünənlər inananların arxasındakı gücün və tək köməkçinin Rəbbimiz olduğundan qafildirlər. Onların düşüncəsinə görə, insanın güclü olması üçün arxasında maddi dayağı, güvən duyduğu yaxınları və dəstək aldığı mühiti olmalıdır. Buna görə də iman edənlərin gücünün arxasında həmişə maddi qaynaq axtarırlar. Halbuki, bu güc Allah`a, qədərə və axirətə imanın, təvəkkülün və təslimiyyətin nəticəsidir. Peyğəmbərlərin və saleh möminlərin həyatında bu gücün və təvəkkülün çox gözəl nümunələri vardır.

Quranda çətinliyə qarşı göstərilən güclü xarakterə gözəl nümunə hz.Musanın dininə iman edən sehrbazların fironun ölüm əmri qarşısında göstərdiyi üstün əxlaqdır. Ayələrdə fironun iman edən sehrbazları ölüm və işgəncə ilə qorxudub doğru yoldan ayırmağa çalışdığı bildirilir. Lakin o, ordusunun və maddi gücünün onları qorxudacağını düşünərək yanılmışdır. Çünki sehrbazlar sadəcə Allah`dan qorxduqlarını və çətinlik qarşısında Ona yönəldiklərini ifadə edirlər. Sehrbazlar fironun bütün təhdidlərinə baxmayaraq, Allah`a imanın verdiyi təvəkküllə bu yoldan dönmələrinin mümkün olmadığını bildirmişlər:

**(Firon) dedi: "Mən sizə izin verməmişdən əvvəl siz Ona iman gətirdiniz? Şübhəsiz ki, O, sizə sehr öyrədən böyüyünüzdür. Mən sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsdirib xurma ağaclarının gövdələrində çarmıxa çəkəcəyəm. Onda hansımızın əzabının daha şiddətli və daha sürəkli olduğunu biləcəksiniz!"**

**Onlar dedilər: "Biz heç vaxt səni bizə gələn bu aydın dəlillərdən və bizi yaradandan üstün tutmayacağıq. İndi nə hökm verəcəksənsə, ver. Sən ancaq bu dünyada hökm verə bilərsən!**

**Həqiqətən, biz Rəbbimizə iman gətirdik ki, O, bizi günahlarımıza və sənin bizi məcbur etdirdiyin sehrə görə bağışlasın. Allah`ın (mükafatı) daha xeyirli, (cəzası) isə daha daimidir!" (Taha surəsi 71-73)**

Quranda bu mövzuda verilən başqa nümunə hz.Musaya iman edən gənclərdir. Ayələrdə fironun təhdidlərindən qorxan insanların Allah`a iman etməyib çox böyük itkiyə məruz qaldıqları bildirilir. Lakin bundan əlavə, Allah`dan başqa heç bir gücdən qorxmayan saleh möminlər Ona iman etmiş və hz.Musanın göstərdiyi yolu izləmişlər. Firon və əyanlarının əziyyəti və hücumu bu gəncləri yollarından ayıra bilməmişdir:

**Firon və onun əyanları tərəfindən özlərinə işgəncə veriləcəyindən qorxaraq Musaya öz qövmündən yalnız azsaylı bir nəsil iman gətirdi. Həqiqətən də, firon yer üzündə qəddar hakim və həddi aşanlardan idi. (Yunis surəsi 83)**

Quranda hz.Musaya iman edən saleh gənclərdə olduğu kimi, digər bütün möminlərin də düşmən qarşısında və yaxud çətinlik, sıxıntı, yoxluq zamanı eyni təvəkküllü və cəsur əxlaqı göstərdiyi bildirilir:

**Möminlər müttəfiqləri gördükdə: "Bu, Allah`ın və Onun Elçisinin bizə olan vədidir. Allah və Onun Elçisi doğru söyləmişlər!"– dedilər. Bu, onların yalnız imanını və itaətini artırdı. (Əhzab surəsi 22)**

## Çətin durumlarda belə, Allah`ın əmrlərinə tabe olmaq

Saleh mömini başqalarından fərqləndirən ən əhəmiyyətli xüsusiyyətlərindən biri Allah`ın əmr və tövsiyələrinə göstərdiyi diqqətdir. Çətin durumlar mömini gözəl əxlaqdan uzaqlaşdıra bilməz. Müsəlman nə qədər ehtiyac içində, yaxud çətin vəziyyətdə olursa-olsun, Allah`ın haram buyurduğu davranışı əsla etməz. Xəstəlik, yoxsulluq, müvəffəqiyyətsizlik və müxtəlif amillər qarşısında belə dürüst, ixlaslı və səmimi davranar.

Şeytan insanları doğru yoldan sapdırmaq, nəfslərinə tabe etdirmək istəyir. Buna görə də Allah`ın haram buyurduğu hərəkətləri icra etdirməyə, halal etdiklərini də tətbiq etməyə mane olmağa çalışır. İnsanın nəfsi də davamlı olaraq pislikləri pıçıldayır. Məsələn, bir insanın nəfsi beş vaxt namaz qılmağa mane olmağa çalışır. Sübh namazlarında halsızlıq, istəksizlik, yuxusuzluq verir. Namaz qılmamaq üçün davamlı səbəblər irəli sürür. Çox işinin olduğu, namaza vaxtının olmadığı kimi şeytani fikirlər pıçıldayır. Lakin imanlı insan bu ibadəti nəfsinin pıçıltılarını dinləmədən, şövq və istəklə yerinə yetirir. Nəfs oruc tutmağı çətin göstərmək üçün müxtəlif bəhanələr pıçıldayır. İnsana aclığa və susuzluğa səbir etməyi çətin göstərməyə çalışır. Oruc tutduğu təqdirdə, bəzi işlərini edə bilməyəcəyi kimi vəsvəsələr verir. Amma saleh mömin nəfsinin bütün təzyiqlərinə baxmayaraq, şövqlə orucunu tutur. Allah rizası üçün səbir etdiyi aclığın, susuzluğun və ya yorğunluğun qarşılığını Rəbbimizdən gözləyir və bundan da həzz alır.

Nəfs qeyri-qanuni yollarla pul qazanmağın qanuni sayıldığı mühitdə hər kəsin bunu etdiyini təlqin edərək bu işi asan göstərməyə çalışır. Ancaq müsəlman çox ehtiyac içində olduğu anlarda da qeyri-qanuni yollara əsla əl atmaz. Haram yollardan qazanılan pulu mənimsəməz. Ac olsa da, haram pulla açılan süfrədən yemək yeməz, belə mühitdə olarkən narahatlıq hissi keçirər. Ehtiyac içində olmağı səhv davranışlara zəmin ola bilməz. Vacib olan şərt Allah`ın haram buyurduqlarına qarşı diqqətli olmaq və bunları şövqlə, ixlasla yerinə yetirməkdir.

Allah`ın razılığına uyğun davranmağın zövqünü yaşayan müsəlmanları Allah Quranda xeyirlərdə yarışanlar adlandırmışdır. Allah`ın vəd etdiyi cənnətə qovuşmaq yarışında müsəlman hər cür çətinliyə səbir etməyin və hər cür fədakarlığı, gözəl rəftarı göstərməyin sevincini yaşayır. Məsələn, çox yuxusuz olduğu halda, mömin qardaşına kömək edir. Bunu edərkən qarşı tərəfə minnət qoymur və bu üstün əxlaqdan həzz alır.

Allah Quranda müsəlmanların İslam əxlaqından məmnun olub zövq aldıqlarını, bunun əksini isə çirkin gördüklərini belə xəbər vermişdir:

**…Lakin Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır. Doğru yolda olanlar da bunlardır. Bunlar Allah`ın lütfü və neməti sayəsindədir. Allah biləndir, müdrikdir. (Hucurat surəsi 7-8)**

Lakin şeytan bütün qeyri-qanuni işləri insanlara məqbul göstərməyə çalışır. Bunun üçün istifadə etdiyi yollardan biri pislik edənlərin çoxluq təşkil etməsidir. İnsanların böyük hissəsi haram pul yeyir, halal-harama diqqət etmir, hər cür əxlaqsızlığı yaşayır. Şeytan insanlara daim çoxluğu təşkil edən insanların doğru yolda olduğunu, onların etdiklərinin məntiqli olduğunu pıçıldayır. Halbuki, Allah`ın "Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar… (Ənam surəsi 116)" ayəsində də bildirdiyi kimi, pislik edənlərin çox olması onların doğru yolda olduğunu göstərməz.

Əksinə, Allah ayələrdə çox az insanın iman edəcəyini bildirir, əksəriyyətin isə azğınlıq içində olduğunu xəbər verir. Buna görə də şeytan iman edən insanı bu üsulla aldada bilməz, o, ancaq imanı zəif və vəsvəsəli insanlara və inkarçılara təsir edə bilər.

Saleh müsəlmanların göstərdiyi diqqət isə Allah`a olan imanlarından, bu imandan qaynaqlanan əzmdən və üstün əxlaqlarından qaynaqlanır. Müsəlman gözəl əxlaqa dair hər davranışın nəfsə ağır gəldiyini bilir və bunun həzzini yaşayır. Allah`ın ayələrdə təriflədiyi gözəl əxlaqa sahib möminlərin qazandığı gözəlliklərdən biri isə möminlərin hörmət və sevgisidir. İnsanın Allah yolunda cəhd etməsi, hər cür maneəni şövqlə dəf etməsi, haqq yolda heç kimdən çəkinmədən, yorulmadan, eşq və şövqlə qərarlı davranması, hər cür fədakarlığı etməsi o müsəlmana qarşı duyulan sevgini, hörməti qat-qat artıran xüsusiyyətlərdir. Allah bu üstün əxlaqı yaşayan insanları "Ənbiya" surəsinin 101-ci ayəsində "öncədən özlərinə ən gözəl nemət yazılmış kəslər" kimi təsvir etmiş, onların həm fiziki, həm də əxlaqi gözəlliyindən xəbər vermişdir.

## Çətin anlarda əsl dost sadəcə möminlərdir

Dindən uzaq insanların istifadə etdiyi bir ifadə var: yıxılanın dostu olmaz… Bu sözün də ifadə etdiyi kimi, cahil cəmiyyətdə insanlar çətin anda və ehtiyac duyduqları zaman yanlarında gerçək dost tapa bilmirlər. Halbuki, həyatda dostluq, vəfa və sədaqət anlayışları çox böyük yer tutur. Çünki insan maddi çətinlik çəkərkən, xəstəlik zamanı, yaxud mənəvi olaraq dəstəyə ehtiyac duyduğu anlarda yanında həqiqi köməkçi, əsl dost olaraq bir mömin qardaşının olmasını istəyir. Lakin din əxlaqından uzaq olan cəmiyyətlərdə bütün əlaqələr mənfəətə əsaslandığı üçün bu dostu tapmaq qeyri-mümkündür. Hətta bu insanlar illərlə dost hesab etdiyi kəslərin gerçək üzləri ilə bu dövrlərdə qarşılaşırlar. Çətinlik çəkən insana bu dövrdə bir tərəfdən də onlar çətinlik verirlər. Belə hallara tez-tez rast gəlmək mümkündür. İnsanlar davamlı olaraq çətinlik anında yaxınlarının onları axtarmadığından, tək qaldıqlarından və heç kimdən dəstək görə bilmədiklərindən şikayətlənirlər.

Məsələn, çox zəngin həyat yaşayan, lüks avtomobillərdən istifadə edən, bahalı yerlərdə əylənən insanın dost mühiti geniş olur. Ətrafında çoxlu "dostu" vardır. Lakin bu insanın işləri korlanarsa və öz fabrikində işləməyə başlayarsa, mövqeyi sadəcə "işçi" olarsa, ətrafı ilə əlaqəsi necə olar? Ətrafındakılar varlı ikən göstərdikləri sevgi və hörməti yenə göstərərlərmi? Bahalı paltarlar geyinməsə, lüks avtomobillərdə gəzməsə, lazımsız yerə pul xərcləməsə, dostlarına ziyafətlər verməsə, yenə eyni marağı, hörməti və əlaqəni görə bilərmi? Təbii ki, görə bilməz. Hətta əksinə, dost dediyi hər kəs ondan üz döndərər. Görməzlikdən gəlib, bəlkə də arxasınca lağ edərlər. Əslində, o insanın ruhu dəyişməyib, sadəcə xarici görünüşü dəyişmişdir. Amma cahiliyyədəki dostluqlar xarici görünüşə və maddiyyata dayandığı üçün o insanın: "Dostum", - dediyi kəslər bir anda yoxa çıxırlar, o da tək qalır.

Başqa nümunə: evli cütlüyü düşünün. Evlənərkən pis gündə, yaxşı gündə bir-birlərini tərk etməyəcəklərinə dair söz vermişlər. Lakin biri qəza nəticəsində iflic olduqda, danışa bilmədikdə və heç bir şey edə bilməyəcək vəziyyətə gəldikdə, görəsən, həyat yoldaşının davranışı necə olur? Bəlkə, müəyyən müddət buna dözə bilir, kömək edə bilir. Amma bunun faydasının olmadığını, zərər çəkdiyini düşünsə, hər şey dəyişir. Belə nümunələr cahiliyyədəki vəfa, dostluq və sədaqət anlayışını açıq şəkildə göstərir. Bu cür münasibətlərdə mənfəətin bitdiyi yerdə əlaqələr də dərhal sona çatır. Bu vəziyyətdə həyat yoldaşını tərk etməyənlərin əksəriyyəti isə bunu sevgi və mərhəmətə görə deyil, cəmiyyətə görə edirlər. Görünüşdə vəfalı və sadiq görünür, amma möhtac vəziyyətdəki həyat yoldaşına qarşı mərhəmət və şəfqət hiss etmirlər.

Cahil cəmiyyətə aid başqa bir nümunə də gənc insanların yaşlılara, qoca ata və analarına qarşı münasibətləridir. Ailələri onların hər cür ehtiyaclarını qarşılamışdır. Amma valideynləri yaşlandıqda onlar ata və analarına qarşı eyni sədaqət və diqqəti göstərmirlər. Hətta bu yaşlı insanların özlərinə yük olduğunu düşünüb onları qocalar evinə yerləşdirirlər. Halbuki, müsəlman ailəsinə qarşı yaxşı gündə də, pis gündə də vəfalı olar. Bütün ehtiyaclarını təmin etmək üçün çalışar. Çünki Allah ayələrdə möminlərin ailələrinə qarşı necə davranmalı olduqlarını bildirmiş, gözəl sözü nəsihət etmişdir:

**Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" - belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə! (İsra surəsi 23)**

Ayədən də aydın olduğu kimi, imanlı şəxs ehtiyac içində olana minnət qoymadan hər cür köməyi edir, vicdanlı davranır. Gerçək dostluğun, vəfanın, səmimiyyətin, sədaqətin yaşandığı tək yer saleh möminlərin yanıdır. Müsəlmanlar bir-birinin dostu, köməkçisi və qardaşıdır. Müsəlman ən çətin anda belə mömin qardaşının yaxşılığını, rahatlığını düşünür. Onların nəfsini öz nəfsindən üstün tutur. Hər cür fədakarlığı edir, bundan da böyük zövq alır. Xəstələnəndə mömin qardaşının bütün ehtiyaclarını qarşılayır, maddi çətinlik çəkərsə, bütün imkanlarını onunla paylaşır; lazım gəldiyində, yuxusuz və ac qalır, amma müsəlman qardaşını çətin vəziyyətdə və ehtiyac içində qoymur. Allah ayələrdə iman edənlərin gerçək dostlarını belə bildirir:

**Sizin himayədarınız yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir. Onlar (Allah`a) boyun əyərək namaz qılır və zəkat verirlər. (Maidə surəsi 55)**

**Həqiqətən, iman gətirən, hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edən (mühacirlər) və sığınacaq verib köməklik göstərən (ənsarlar) – məhz onlar bir-birinin dostlarıdır.… (Ənfal surəsi 72)**

## Hər çətinliklə birlikdə asanlıq vardır

Kitabın əvvəlindən etibarən Allah`ın inananlara sınaq olaraq verdiyi müxtəlif çətinliklərdən və bunun qarşısında möminlərin göstərdiyi üstün əxlaqdan bəhs etdik. Bu əxlaqı yaşayarkən qəlblərində hiss etdikləri şövqdən, dinclikdən, sevgi və hörmətdən danışdıq.

Çətinliklərlə yanaşı, Allah`ın iman edən qullarına gözəllik və asanlıq verdiyini vurğulamaq lazımdır. Allah bir çox ayədə saleh möminlərin işlərində asanlıq yaratdığını bildirir:

**Şübhəsiz ki, hər çətinlikdən sonra bir asanlıq gələr! Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr! (İnşirah surəsi 5-6)**

**… Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir. (Bəqərə surəsi 185)**

**Səni ən asan olana müvəffəq edərik. (Əla surəsi 8)**

**…Kim Allah`dan qorxarsa, (Allah) onun işini asanlaşdırar. Bu, Allah`ın sizə nazil etdiyi əmridir. Kim Allah`dan qorxarsa, (Allah) onun (günahlarından) keçər və onun mükafatını artırar. (Talaq surəsi 4-5)**

**…Allah heç kəsin üzərinə Özünün ona verdiyi (nemətdən) artıq yük qoymaz. Allah hər bir çətinlikdən sonra asanlıq verir. (Talaq surəsi 7)**

Bütün bu ayələrdən də aydın olduğu kimi, Allah çətinlik və sıxıntı çəkən möminlərin işlərini asanlaşdırır və onlara kömək edir. Ayələrdə Allah`ın inananlara mələklərlə kömək etdiyi və bunun müjdə məqsədi ilə edildiyi bildirilir:

**Siz zəif olduğunuz halda, Allah Bədrdə sizə yardım etdi. Elə isə Allah`dan qorxun ki, bəlkə şükür edəsiniz. O vaxt sən möminlərə demişdin: "Rəbbinizin göndərdiyi üç min mələyin köməyinizə çatması, sizə bəs etmirmi?" Əlbəttə, siz səbir etsəniz, (Allah`dan) qorxsanız və onlar bu saat sizin üstünüzə hücuma keçsələr, Rəbbiniz nişanlanmış beş min mələklə sizə yardım edər. Allah bunu sizə ancaq bir müjdə və qəlbiniz bununla sakit olsun deyə etdi. Kömək ancaq qüdrətli və müdrik Allah`dandır. (Bu, ona görə idi ki, Allah bununla) kafirlərin bir bölüyünü qırğına versin və ya onları darmadağın etsin ki, məyus halda geri dönsünlər. (Ali-İmran surəsi 123-127)**

Allah möminləri görünməyən əsgərlərlə də dəstəkləyir, qəlblərinə arxayınlıq yerləşdirir. "Tövbə" surəsində Allah`ın çətinlik anında Peyğəmbərimizə (səv) verdiyi dəstək bu şəkildə ifadə edilir:

**(Ey möminlər!) Əgər siz ona kömək etməsəniz, Allah ona kömək göstərmiş olar. Necə ki, kafirlər onu (Məkkədən) iki nəfərdən biri olaraq çıxartdıqları, hər ikisi mağarada olduğu və öz dostuna: "Qəm yemə, Allah bizimlədir!" –dediyi zaman (göstərmişdi). O vaxt Allah ona bir arxayınlıq nazil etmiş, onu sizin görmədiyiniz əsgərlərlə müdafiə etmiş, kafirlərin sözünü alçaltmışdı. Yalnız Allah`ın sözü ucadır. Allah yenilməz qüvvət, hikmət sahibidir! (Tövbə surəsi 40)**

Yuxarıdakı ayələrdə də ifadə edildiyi kimi, müsəlmanlara sınaq olaraq verilən çətinliklərlə yanaşı, böyük asanlıqlar da yaradılır. Müsəlmanların birlik olmaları, hər şeyin sınaq olduğunu bilmələri, sonsuz axirət yurduna hazırlandıqlarının şüurunda olmaları, əslində, bu çətinliklər qarşısında onlara verilən asanlıq hökmündədir. Bundan əlavə, Allah möminləri gözəlliklə müjdələyir. Peyğəmbərlərin və saleh möminlərin həyatında da gördüyümüz kimi, Allah hər çətinliyin ardından inananlara mütləq zəfər, müvəffəqiyyət və qalibiyyət verir. Bu mövzuda Quranda verilən çox əhəmiyyətli nümunə hz.Yusifin həyatıdır.

Hz.Yusif kiçik yaşda qardaşları tərəfindən quyuya atılır. Onu tapan şəxslər hz.Yusifi vəzirə kölə kimi satırlar. Sonra vəzirin həyat yoldaşı hz.Yusifə böhtan atır və bunun böhtan olduğunu hər kəs bildiyi halda, illərlə həbs olunur. Həbsdə müxtəlif çətinliklərlə qarşılaşır, lakin hər zaman gözəl əxlaq göstərir. Başına gələn hər hadisədə Allah`a yönəlir və beləliklə, həbsxana onun üçün mədrəsəyə çevrilir. Müsibət və çətinliklər qarşısında göstərdiyi təvəkkül, təslimiyyət və Allah`a olan bağlılıq bütün inananlara nümunədir. Allah bu üstün əxlaqının qarşılığı olaraq onu zindandan azad edir, dünyada ona güc və zənginlik verir.

Buna görə də, hz.Yusifin həyatında inananlar üçün çox gözəl nümunə vardır. Allah çətinliklər qarşısında təvəkkül və səbir göstərən qullarına mütləq asanlıq və gözəllik verəcəyini vəd etmişdir:

**…Kim Allah`dan qorxsa, Allah ona bir çıxış yolu əta edər. Və ona gözləmədiyi yerdən ruzi verər. Kim Allah`a təvəkkül etsə, (Allah) ona kifayət edər. Allah Öz əmrini yerinə yetirəndir. Allah hər şey üçün bir ölçü təyin etmişdir. (Talaq surəsi 2-3)**

Allah qullarını bəzən çətinlik və sıxıntılarla imtahan edir. Amma bunun şüurunda olan, Allah`a təslim olan, qarşısına çıxan hər hadisədən razı olan möminlər ən böyük qazancı əldə edirlər. Çünki onlar bu dünyada çəkdikləri çətinliyin, hər cür çətin şəraitdə göstərdikləri üstün əxlaqın, fədakarlığın, səbrin, təslimiyyətin qarşılığını axirətdə alacaqlar. Bəlkə də bu dünyada bir neçə dəqiqəlik çətinlik, axirətdə milyonlarla illik cənnət həyatı olaraq qarşılarına çıxacaq. Şübhəsiz ki, bu böyük həqiqəti bilən insanlar bütün həyatlarını şövq, rahatlıq, cənnət kimi sonsuz gözəlliklərlə dolu bir məkanı ümid etməyin həyəcanı və sevinci içində keçirirlər. Allah bu insanların vəziyyətini ayədə belə bildirir:

**O kəslər ki, yalan yerə şahidlik etməz, faydasız bir şeylə rastlaşdıqları zaman onlardan üz çevirib vüqarla keçər. O kəslər ki, Rəbbinin ayələri zikr olunduğu vaxt özünü onlara qarşı kar və kor kimi aparmaz. Və o kəslər ki: "Ey Rəbbimiz, bizə zövcələrimizdən və uşaqlarımızdan gözümüzün işığı olacaq övladlar ehsan buyur və bizi müttəqilərə imam et!" – deyərlər. Məhz belələri səbir etdiklərinə görə, cənnət guşəsi ilə mükafatlandırılacaq, orada ehtiramla, salamla qarşılanacaqlar. Onlar orada əbədi qalacaqlar. O, nə gözəl mənzil, nə yaxşı iqamətgahdır! (Furqan surəsi 72-76)**

**O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allah`ı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırar. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi bir gündən qorxarlar. Allah onlara etdikləri əməllərin ən gözəl mükafatını versin, onlara olan lütfünü artırsın. Allah dilədiyinə saysız-hesabsız ruzi verər. (Nur surəsi 37-38)**

# CAHİL İNSANLARIN ÇƏTİNLİKLƏR QARŞISINDA DAVRANIŞLARI

Şərtlər nə olur-olsun, müsəlmanların əxlaqında dəyişiklik olmadığını əvvəlki hissələrdə görmüşdük. İman etməyənlər və ya ürəklərində xəstəlik olanlar isə çətin anlarda əzmli olmurlar. Səbirlərinin tükəndiyi bir nöqtə mütləq vardır. Buna görə də çətinlik və sıxıntı ilə qarşılaşdıqda gərginlik keçirirlər. Bu gərginlik bəzən kiçik bir hadisə ilə özünü büruzə verir; qəzəblənirlər, qışqırırlar, dalaşırlar, təhqir edirlər, şiddət göstərirlər… Gündəlik həyatda şən, gülərüz, rahat olan insanlar çətinlik anlarında sanki xarakter dəyişdirirlər. O insanın yerinə tərs, kobud insan gəlir. Müsəlman doğrunu və gözəli səbirlə izah etdiyi halda, cahil insanlar izah etmək yerinə hücum edirlər. Bu, cahiliyyənin gerçək üzü, gerçək xarakteridir.

İşdən çıxarılmaq, xəstəlik, qəza, fəlakət, müflisləşmək kimi çətinliklər bu xarakter dəyişikliyinə səbəb ola bilər. Bu xarakterə məxsus insanların rahatlığı hər hansı bir səbəblə itərsə, dərhal əhvalları pozular və ümidsizliyə düşərlər. Allah Quranda çətinliklə qarşılaşdıqda nankorluq edənləri belə xəbər verir:

**İnsana gəldikdə, nə zaman Rəbbin onu imtahana çəkib ehtiram etsə, ona bir nemət versə, o: "Rəbbim mənə ehtiram göstərdi!" –deyər. Amma nə zaman (Rəbbin) onu imtahana çəkib ruzisini əskiltsə: "Rəbbim məni alçaltdı!" – söyləyər. (Fəcr surəsi 15-16)**

Allah dindən uzaq olan insanları da bəzən nemətlər verərək, bəzən də bu nemətlərdən azaldaraq sınayır. Müsəlmanlar bu vəziyyətdə mütləq təvəkküllü və şükürlü davrandıqları halda, inkarçılar Allah`a qarşı nankorluq edirlər. Bu insanlar dünyada imtahan edildiklərinin şüurunda olmurlar və buna görə də həm dünyada, həm də axirətdə itkiyə məruz qalırlar.

İnkarçılar çətinliklə qarşılaşdıqda kədərlənirlər. Çətinliklərə dözə bilməyib ya intihar edir, ya da içki və narkotik vasitələrdən istifadə edərək depressiyaya düşürlər. Lakin heç biri bu çətinliklərin səbəbini düşünmür. Halbuki, Allah`ın inkar edənlərə bu çətinlik və əziyyətləri verməsinin bir hikməti də insanların "… Biz onları əzabla yaxaladıq ki, bəlkə, qayıdalar. (Zuxruf surəsi 48)" ayəsində də bildirildiyi kimi, doğru yola yönəlmələri, yəni tövbə edib iman etmələridir. Lakin bu çətinlik və sıxıntılar çox vaxt bu inkarçıların qəlblərinin sərtləşməsi və inkarlarının daha da artması ilə nəticələnir:

**Nə üçün əzabımız onlara gəldiyi zaman boyun əymədilər? Onların qəlbləri sərtləşdi, şeytan da onlara etdikləri əməlləri gözəlləşdirdi. Onlar özlərinə edilmiş xəbərdarlığı unutduqları zaman hər şeyin qapılarını onların üzünə açdıq. Özlərinə verilən şeylərə**

**sevindikləri vaxt isə onları qəflətən yaxaladıq və onlar naümid qaldılar. (Ənam surəsi 43-44)**

## Dünyaya bağlananların vəziyyəti

Müsəlmanlar imtahanın sirrini qavradıqları üçün xoşbəxt və rahat yaşayırlar. Dünyaya bağlananlar isə çox çətinlik və əzab çəkirlər. Müsəlmanlar səbrin gözəlliyini və zövqünü yaşadıqları halda, dünyaya bağlanıb imtahan olunduqlarını anlamayanlar səbirsizliyin, təvəkkülsüzlüyün, xəsisliyin, dünya həvəsinin çətinliyini və əzabını yaşayırlar. Bu əzab həyatlarının hər anında özünü göstərir. Hər işlərinə bərəkətsizlik və narahatlıq hakimdir. Gözəllikləri görmür, üstün əxlaqın verdiyi zövqü əsla dada bilmirlər.

Namussuzluq, əxlaqsızlıq, riyakarlıq həyatlarının hər anında özünü büruzə verir. Ən böyük səhvləri isə həmişə özlərini düşünüb, xəsislik və eqoistlik edərkən bunların özlərinə gətirəcəyi zərərləri görə bilməmələridir. Əslində, bu şəkildə düşünənlər həm dünyada, həm də axirətdə böyük itkiyə məruz qalırlar, lakin bunun fərqinə vara bilmirlər. İnkar edənlər altından çaylar axan cənnət yurdunu, sonsuz nemətləri itirirlər. Ən əsası isə Allah`ın razılığını və rəhmətini itirmələridir. Allah “Fatir” surəsində inkarçıların necə böyük itki içində olduqlarını bu şəkildə bildirir:

**Sizi yer üzündə xələflər edən Odur. Kafirin küfrü öz əleyhinə olar. Kafirlərin küfrü Rəbbi yanında ancaq onlara bəslənən qəzəbi artırar. Kafirlərin küfrü onlara ziyandan başqa bir şey artırmaz. (Fatir surəsi 39)**

İnkar edənlərin içinə düşdüyü bu vəziyyət onları izləyən müsəlman üçün ibrət vericidir. Məsələn, oğurluq edib yetimin, kasıbın, ehtiyac içində olanın malını qəsb edən adamın bu haram pullarla alıb geyindiyi paltarların mənəvi kiri hər halından bilinir. Allah ayələrdə iman etməyənlərin vəziyyətini “Allah iman gətirməyənləri beləcə rəzalətə salar. (Ənam surəsi 125)” şəklində bildirir. Onların üzərindəki cismani kirlə yanaşı, mənəvi kir də xəbər verilir. Bu kir Allah`dan qorxanların görə biləcəyi mənəvi kirdir. Varlı olduğu halda, xəsislik edən, kasıba, yoxsula və ehtiyac içində olana əl tutmayan, kömək etsə belə, bunu minnət altında qoyaraq edən bu kəslər, mənəvi kiri də üzərilərində daşıyırlar. “Dini yalan sayan o kimsəni gördünmü? O, elə adamdır ki, yetimi qovar və kasıba əl tutmağa sövq etməz. (Maun surəsi 1-3)” ayələrində bildirilən əxlaqdakı şəxslərin bütün hərəkətləri, haram yemələri, sədəqə verməyib pul yığmaları və bu pulları qeyri-qanuni şəkildə xərcləmələri iman edənlərdə ikrah hissi oyadır.

Gündəlik həyatda mal-dövlətini haram işlərlə qazanan kəsləri görürük. Həyatını cinayət, rüşvət və ya fırıldaqla qazananların davranışları günahkar həyatın izlərini daşıyır. Allah haram yeyən, yetimin malını mənimsəyən, yoxsula, ehtiyacı olana əl tutmayan, zülm edən insanların

bütün heybət və gözəlliyini əllərindən alır. Onlar özlərini gözəlləşdirməyə çalışdıqca mənəvi kir, zülmət və çirkinlik onları bürüyür. Bu, əxlaqsızlığın, günahkarlığın, şərəfsizliyin işarəsidir. Allah pis əxlaqın nəticəsində insanların üzlərini örtən bu zülmət və çirkli ifadəni "zillət" sözü ilə bizlərə açıqlayır:

**Yaxşı iş görənlər üçün ən yaxşısı (cənnət) və bundan da üstünü (Allah`ı görmək) vardır. Onların üzünü nə bir qubar, nə də bir zillət bürüyər. Onlar cənnət sakinləridirlər və orada əbədi qalacaqlar. Pis işlər görənlərə isə pisliyin cəzası onun misli qədər verilər. Onları zillət bürüyər. Onları Allah`dan qoruya bilən bir kimsə də yoxdur. Onların üzləri sanki zülmət gecənin parçalarına bürünmüşdür. Onlar od sakinləridir və orada əbədi qalacaqlar. (Yunis surəsi 26-27)**

Ayədə də ifadə edildiyi kimi, gözəl əxlaq insanların gözəlliyini artırır, pis əxlaq isə qaranlıq gecə kimi inkarçıların üzünü bürüyür. Çünki Allah hər kəsə etdiyi ilə qarşılıq verir. Pislər pisliklə, yaxşılar da gözəlliklə qarşılıq görür. Belə kəslərin bütün davranışları inananlarda ikrah hissi oyadır.

Məsələn, belə insanın hər hərəkəti başqalarında narahatlıq yaradır. Ziyafət təşkil etdikdə, bu, kənardan nə qədər gözəl görünsə də, onların əxlaqlarının fərqində olan insanın gözünə gözəl görünməz. Çünki bu insanların həyatı haramdan ibarətdir. Yeyib-içdiklərində kasıbın, yetimin haqqı vardır. Bir mömin halal pulla qazanılmış bir qab yeməyi, haram yolla qazanılmış pulla hazırlanan möhtəşəm süfrədən üstün tutar. Hər şeydə köməksiz qadınların, uşaqların, zərər çəkən yaşlıların haqqı olduğunu düşünər. Fiziki cəhətdən təmizlik olsa belə, əvvəlcə bəhs etdiyimiz mənəvi çirk bunlarda da hiss edilər. Ayələrdə Allah haram yeyənlərin və yalana qulaq asanların həm dünyada, həm də axirətdə rüsvay olacağını, insanların gözündə də alçalacağını bildirmişdir:

**… Allah kimi fitnəyə salmaq istərsə, sən ondan ötrü heç bir şeylə Allah`a mane ola bilməzsən. Onlar o kəslərdir ki, Allah onların qəlbini təmizləmək istəməmişdir. Onlar dünyada rüsvay, axirətdə isə böyük bir əzaba düçar olacaqlar. Onlar yalana qulaq asanlar və haram yeyənlərdir… (Maidə surəsi 41-42)**

Əslində, bu insanlar da özlərindən və özlərinə bənzəyən insanlardan narahat olurlar. Çünki vicdansız və zalım davranışlarına özləri də şahiddirlər. Haram işlərdən dolayı çox həyasız bir görünüş alırlar. Günümüzdə bu həyasızlığın hakim olduğu kəslər fahişəlik edənlər və bundan pul qazananlardır. Bu əxlaqsızlığı peşə edənlər insanlıqdan uzaqlaşırlar. Üzərilərində insanlığa aid heç bir gözəllik qalmır, bütün heybətləri gedir. Fahişəlik qadında da, kişidə də çirkinlik meydana gətirir. Allah bu insanlara xəstəlik, bəla, müsibət, yoxluq verir. Bəhs etdiyimiz mənəvi kir və zillət bu kəslərdə də özünü büruzə verir.

Allah ayələrdə imtahanın sirrini qavrayan və cənnət yurduna qovuşan inananlarla yanaşı, zillət əhlinin cəhənnəmdəki mövqeyini də bildirir. Bu kəslər həlak olmuş və bütün yaxınlarını da həlak etmişlər:

**(Cəhənnəm) qarşısına gətirildikləri zaman sən onların zəlillikdən başlarını aşağı salıb gözucu gizlin-gizlin baxdıqlarını görəcəksən. Möminlər deyəcəklər: "Şübhəsiz ki, ziyana uğrayanlar qiyamət günü özlərini və ailələrini itirənlərdir". Həqiqətən, zalımlar daimi əzab içində olacaqlar. (Şura surəsi 45)**

# İMTAHAN SON ANA QƏDƏR DAVAM EDİR

İnsanın dünya həyatındakı imtahanı həyatının son anına qədər davam edir. Əgər insan 75 il yaşasa, 75-ci ilin ən son günündə belə, Allah`a qarşı olan məsuliyyəti davam edir, Allah tərəfindən imtahan edilir və öyrədilir. Buna görə də həyatının hər anında Allah`ın hökmlərinə tabe olmalı, ibadətlərini yerinə yetirməli, Onu xatırlayaraq razılığını axtarmalıdır.

Və bu həqiqət çox əhəmiyyətli bir nəticəyə də səbəb olur: əgər insan bu son günündə, hətta son anında belə yolundan dönsə, Allah`a qarşı nankorluq etsə, imtahanı itirər və bütün dünya həyatı puç ola bilər. Bütün həyatını Allah`ın razılığına uyğun olaraq yaşasa belə, son andakı üsyan, bütün əməklərini puç edə bilər.

Bütün müsəlmanlar bu mövzuda diqqətli olmalıdırlar. Çünki insanın ən böyük düşməni olan şeytan insanı son nəfəsinə qədər azdırmağa cəhd edir. Müxtəlif üsullardan istifadə edib insanları Allah`a qarşı üsyan etdirməyə çalışar. Son an da şeytanın insanı azdırmaq üçün çalışdığı zamandır. "Mən onsuz da Allah`a iman edirəm, Onun razılığı üçün bu qədər iş gördüm, artıq qurtuldum", -deyən insan qəflətə düşmüşdür. Çünki ayələrdə insanın son ana qədər həmişə qorxu və ümid içində dua etməli olduğu (Səcdə surəsi 16) bildirilir və hər müsəlman Allah`ın aşağıdakı əmri üzərində düşünməyə dəvət edilir:

**Ey iman gətirənlər! Allah`dan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün! (Ali-İmran surəsi 102)**

## İman gətirdikdən sonra inkar edənlər

İman Allah`ın verdiyi ən böyük nemətlərdən biridir. İnsanın dünyadakı xoşbəxtliyi və rahatlığı, sonsuz həyatındakı qurtuluşu da imanının vasitəsi ilə olur. Buna görə də bütün nemətlər kimi iman üçün də Allah`a şükür etmək lazımdır. Allah imanı dilədiyi quluna nəsib edər, dilədiyinə isə etməz. Allah`ın iman vermədiyi insanı bütün dünya imana dəvət etsə belə, heç bir şəkildə iman etməz. Bu həqiqət Allah`ın Peyğəmbərimizə (səv) xitab olaraq endirdiyi bir ayədə belə ifadə edilir:

**Sən onların doğru yola gəlməsinə nə qədər çalışsan da, Allah azdırdığı kimsələri doğru yola yönəltməz və onlara kömək edən də olmaz. (Nəhl surəsi 37)**

**Biz onların kökslərindəki kin-küdurəti çıxaracağıq. Onların altından çaylar axacaq. Onlar deyəcəklər: "Bizi buna qovuşduran Allah`a həmd olsun! Əgər Allah bizə hidayət etməsəydi, biz özümüz doğru yola yönələ bilməzdik. Əlbəttə, Rəbbimizin elçiləri haqqı**

**gətirmişdilər". Onlara (belə) xitab ediləcəkdir: "Əməlləriniz sayəsində varis olduğunuz cənnət budur!" (Əraf surəsi 43)**

Nemətə şükür etmək, şifahi olaraq Allah`a həmd etməklə bərabər, feili olaraq da Allah`ın razılığına uyğun hərəkətlər etməkdir. İmanın şükürü ibadətdir. Hər mömin Allah`ın özünə verdiyi imana şükür olaraq ibadətlərini yerinə yetirməli, bütün imkanlarını Allah rizası üçün istifadə etməli, özünü Allah`a həsr etməlidir.

Əgər bu şükür edilməzsə, yəni mömin "Mən möminəm, cənnət əhlindən olacağam" şəklində düşünərək sınaqdan keçirildiyini unutsa, verilən nemət geri alına bilər. Quranda Allah`ın təsvir etdiyi kimi qəlbi qatılaşa bilər və sonda inkara düşə bilər. Bu vəziyyətdə, əvvəlki imanı və etmiş olduğu saleh işlər özünə heç bir fayda verməz, əməlləri puç olar. Allah bu həqiqəti bir çox ayədə xəbər vermişdir:

**... Sizlərdən hər kim dinindən dönüb kafir olaraq ölsə, onun əməlləri dünyada və axirətdə puça çıxar. Onlar od sakinləridirlər və orada əbədi qalacaqlar. (Bəqərə surəsi 217)**

**Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan". (Zumər surəsi 65)**

**İman gətirənlər isə deyəcəklər: "Sizinlə bərabər olacaqlarına dair Allah`ın adı ilə möhkəm and içənlər bunlardırmı?" Onların əməlləri puça çıxdı, özləri də ziyana uğrayanlardan oldular. Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah (onun əvəzinə) Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu, Allah`ın lütfüdür, onu istədiyinə verər. Allah (hər şeyi) əhatəedəndir, biləndir. (Maidə surəsi 53-54)**

Allah Quranda imandan sonra inkarçıların varlığından bəhs edir. Ayələrdə bu insanların azdığı və Allah tərəfindən bağışlanmayacağı xəbər verilir:

**Şübhəsiz ki, iman gətirib sonra kafir olan, yenə iman gətirib sonra kafir olan, sonra da küfrlərini artıranları Allah bağışlamayacaq və (doğru) yola yönəltməyəcəkdir. (Nisa surəsi 137)**

**Sözsüz ki, iman gətirdikdən sonra kafir olan və küfrlərini bir daha artıran kimsələrin tövbəsi qəbul olunmayacaq. Məhz onlar doğru yoldan azanlardır. (Ali-İmran surəsi 90)**

Bu insanların axirətdəki vəziyyəti isə belə bildirilir:

**O gün (neçə-neçə) üzlər ağaracaq, (neçə-neçə) üzlər də qaralacaqdır. Üzləri qaralan kəslərə: "İman gətirdikdən sonra kafirmi oldunuz? Elə isə, küfrünüzə görə dadın əzabı!"– (deyiləcəkdir). (Ali-İmran surəsi 106)**

Bütün bu ayələr iman gətirdikdən sonra kafir olmaq kimi bir təhlükənin varlığını göstərir. Ayələrdə bəhs edilən insanlar həyatlarının bir hissəsində Allah`ın varlığına və birliyinə iman edib, Onun hökmlərinə görə yaşayan kəslərdir. Lakin sonra nəfsləri onları Allah`ın dinindən uzaqlaşdırmış və inkara aparmışdır. Bu şəkildə, küfrə düşməklə, bəlkə də digər bir çox inkarçıdan daha günahkar hala gəlmişlər. Çünki onlar doğru olanı öyrənmiş, bir müddət yaşamış, amma sonra vicdanları qəbul etdiyi halda, Allah`ın dinini tərk etmişlər. Buna görə, bir zamanlar etdikləri

bütün xeyirli işlər də tamamilə puç olmuşdur (ən doğrusunu Allah bilir). Buna görə də insan dünyada hər an imtahan edildiyini unutmamalıdır. Qarşılaşdığı bütün hadisələrlə sınaqdan keçirildiyini, şeytanın özünə müxtəlif yollarla vəsvəsə verməyə çalışacağını, qarşısına çıxan çətinlikləri heç bitməyəcəkmiş kimi göstərməyə və bu yolla onu doğru yoldan ayırmağa çalışacağını əsla unutmamalıdır. Çünki imandan sonra küfrə düşmək, sonsuz əzaba layiq olmaq deməkdir.

Bu kəslər imandan döndükdən sonra dünyada səfil həyat yaşayırlar. Maddi olaraq zəngin olsalar belə, həyatlarının sonuna qədər mənəvi əzab çəkirlər. Həqiqəti bildikləri üçün vicdanlarını susdurmağa çalışırlar, davamlı olaraq vicdan əzabı çəkirlər. Əsl əzabı isə axirət həyatında yaşayırlar. Allah bunun kimilərin vəziyyətini belə xəbər verir:

**Həqiqətən də, kafir olub kafir kimi də ölənlərin heç birindən dünya dolusu qızıl fidyə versə belə, qəbul olunmayacaqdır. Onlara sarsıdıcı bir əzab hazırlanmışdır və onların köməkçiləri də olmayacaqdır. (Ali-İmran surəsi 91)**

Madam belə bir təhlükə var, mömin həyatının ən son anına qədər bu təhlükədən çəkinmək məcburiyyətindədir. Çünki insanın: "İman etdim", - deyib, zəiflik göstərməməsi çox əhəmiyyətlidir. İnsan etdiklərinin sonsuz axirət həyatına çatmaq üçün kafi olduğunu düşünərsə, "Xeyr! İnsan, doğrudan da, həddini aşır, özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə. (Ələq surəsi 6-7)" - ayəsində bildirildiyi kimi, azğınlıq edə bilər. Buna görə də hər an bu təhlükəni nəzərə almalı, hər hərəkətində Allah`ın razılığına uyğun hərəkət etməlidir. Çünki imtahan insanın həyatının son anına qədər davam edir.

## Mübarizədən qaçanlar

Zəif imanlı, yaxud imanını tamamilə itirən şəxs bir müddət müsəlmanların yanında qala bilər və dinin qaydalarına uyğun tərzdə yaşaya bilər. Lakin Allah belə insanları tanıtdırmaq üçün bəzi imtahanlar yaradır. Çətinliklərlə, aclıqla, yoxsulluqla, xəstəliklə sınaqdan keçirilən möminlərin bu çətinliklər qarşısında imanları artır, ürəklərində xəstəlik olanlar isə küfrə yaxınlaşırlar.

Son anın əhəmiyyəti burada bir daha bilinir. İnsan həyatının böyük hissəsini iman edərək keçirə bilər. Dinə böyük xidmətlər göstərib, xeyirli işlər edə bilər. Ancaq vicdanına tabe olmaqdan imtina edərsə, zəiflik göstərərsə və buna görə qəlbi sərtləşərsə, imtahan anlarında əzmli ola bilməz. Dünya sevgisini və can qorxusunu Allah`ın razılığından üstün tutarsa, küfrə meyillənə bilər.

Ayələrdə peyğəmbərlərin təcavüzkar cəmiyyətə qarşı günahsız insanları qorumaq və Allah`ın dinini mühafizə etmək üçün mübarizə apardığından bəhs edilir. Bu mübarizə çox əhəmiyyətli ibadətdir. Peyğəmbərimizin (səv) dövründə də inkarçılara qarşı güclü mübarizə aparılmışdır. Allah`ın və peyğəmbərin əmri ilə reallaşan bu mübarizələrin hamısı dini məsuliyyətdir. Bu vəzifədən boyun qaçıranlar isə Quranda qəlbləri möhürlənmiş, yəni imandan çıxmış kəslər olaraq bildirilir.

Günümüzdə isə müsəlmanlar inkarçılara qarşı fikri sahədə mübarizə aparırlar. Bu fikri mübarizə inkarçıların bütün dayaq nöqtələrinin elmi olaraq ortadan qaldırılması, elmi olaraq əsassız edilməsi mənasını daşıyır. Bu mövzuda hər müsəlmana böyük məsuliyyət düşür. Heç kim

bu fikri mübarizədə geri planda qalmamalıdır. Çünki Allah ayələrdə arxada qalmağı seçənlərin qəlblərinin möhürləndiyini bildirmişdir:

**“Allah`a iman gətirin və Onun Elçisi ilə birlikdə cihad edin!” (-deyə) bir surə nazil edildikdə onların var-dövlətə malik olanları səndən icazə istəyib dedilər: “Bizi burax (evdə) oturanlarla birlikdə qalaq!” Onlar arxada qalanlarla birgə olmağa razılaşdılar. Onların qəlblərinə möhür vuruldu. Buna görə də onlar anlamayacaqlar. (Tövbə surəsi 86-87)**

Quranda çətinliklə qarşılaşdıqda dərhal bəhanələr uyduraraq qaçmağa çalışanların öz nəfslərini necə həlaka uğratdıqları belə bildirilir:

**Əgər səfəriniz gəlir gətirən və yüngül bir yürüş olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Lakin əziyyətli yol onlara çətin gəldi. Onlar: “Əgər taqətimiz olsaydı, biz də sizinlə bərabər çıxardıq!” (-deyə) Allah`a and içəcəklər. Onlar özlərini həlak edirlər. Çünki Allah onların yalançı olduqlarını bilir. (Tövbə surəsi 42)**

Həm Peyğəmbərimizin (səv) dövründən, həm də digər peyğəmbərlərin dövründən verilən bu nümunələr bir həqiqəti açıq-aşkar bəlli edir: Allah insanları həyatlarının hər anında sınayır və doğru söyləyənlərlə yalançıların bir-birindən ayrılacağı mühitlər yaradır. Xüsusilə çətinlik və sıxıntı ilə qarşılaşdıqda müsəlmanlar əzmli olduqları halda, zəif olanlar dindən dönürlər. Peyğəmbərimizin (səv) dövründə müsəlmanlarla inkarçılar arasında baş verən savaş anında yaşananlar buna nümunədir. Ayələrdə çətinlik anında bəzi müsəlmanların zəiflik göstərdiyi və Allah haqqında cahiliyyə zənninə qapıldıqları bildirilir. Şeytan çətinlik anında bu müsəlmanları yoldan çıxmağa vadar etmişdir:

**İki ordu qarşılaşdığı gün sizdən üz döndərənləri şeytan məhz etdikləri bəzi əməllərlə yoldan çıxmağa məcbur etdi. (Tövbə etdikdən sonra) Allah artıq onları bağışladı. Həqiqətən, Allah bağışlayandır, həlimdir! (Ali-İmran surəsi 155)**

Allah bu hadisədə zəiflik göstərən müsəlmanları bağışladığını bildirmişdir.

Bu ayələrdə inananlar üçün böyük dərslər vardır. Çünki Allah yaxşılarla pislərin ayrılması üçün insanların mütləq imtahan ediləcəyini vəd etmişdir. Bu çətin anlara qarşı dözümlü olmağın tək yolu isə Allah`a güclü iman, ixlas və səmimiyyətdir. Əlbəttə ki, Allah saleh qullarına asanlıq yaradar, onların ürəklərinə hər cür çətinlikdə dinclik və güvən duyğusu endirər. Amma bunu da unutmamaq lazımdır ki, Allah`ın insanları sınayacağına və yaxşılarla pisləri ayıracağına dair vədi mütləqdir:

**Yoxsa elə hesab edirsiniz ki, Allah sizlərdən cihad edənləri, Allah`dan, Onun Elçisindən və möminlərdən başqasını özlərinə sirdaş tutmayanları sınamadan siz sərbəst buraxılacaqsınız? Allah nə etdiklərinizdən xəbərdardır. (Tövbə surəsi 16)**

**İnsanlar elə güman edirlər ki, təkcə: “İman gətirdik!”– dedmələri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər? Biz onlardan öncəkiləri də sınaqdan keçirmişdik. Sözsüz ki, Allah doğru danışanları da, yalançıları da aşkara çıxardacaqdır. (Ənkəbut surəsi 2-3)**

# NƏTİCƏ

Bütün insanlar sürətlə ölümə doğru yaxınlaşır. Ən gənc insan üçün də, ən yaşlı insan üçün də ölüm eyni uzaqlıqdadır. Çünki kimin nə vaxt və necə öləcəyi bəlli deyil. 68 yaşında yatağında ölümü gözləyən bir insan üçün ölüm nə qədər yaxındırsa, 18 yaşında yolda gedən gənc üçün də eyni yaxınlıqdadır. Bəlkə də, o gənc yol keçərkən qəzaya düşəcək və dünya həyatı sona çatar. Bəlkə də bu an onun son dəqiqələridir…

Bütün insanların həyatındakı ən böyük həqiqətlərdən biri budur.

Bu halda, hər insan bir növ yarış içindədir. Dünyada olduğu müddət ərzində axirət üçün çalışmaqla məsuldur. Bədiüzzamanın da dediyi kimi, dünya iman edən insanlar üçün səyyar ticarət və yol kənarında qurulan qısa müddətli bazardır.[9] Yəni bir insan burada karlı ticarət edə bilər və axirətdə sonsuza qədər bu dünyada qazandığı əcrlərin qarşılığını ala bilər.

İnsan vicdanının səsini dinləyib Allah`ın özünü imtahan etdiyini əsla unutmamalıdır. Allah bu yolda insana rəhbər olaraq Quranı, nümunə olaraq da elçiləri və saleh möminləri göndərmişdir. Səmimi olaraq Allah`a yönələn insan çətinliklər qarşısında mütləq asanlıqla rastlaşar və qurtuluşa çatar. Yəni bu imtahan dünyasının ən böyük sirlərindən biri iman edənlər üçün mütləq mənfəətlə bitməsidir.

İman edən insan saleh möminlərin ayələrdə bildirilən əxlaqını özünə nümunə götürərək qədərini izləməlidir. Hər nə olursa-olsun, Allah`a qarşı sədaqətli olanlar, səbir və əzmlə axirətə yönələnlər Quranda belə bildirilir:

**Neçə-neçə peyğəmbər (olmuşdur ki,) bir çox dindarlarla birlikdə vuruşmuşlar. Onlar Allah yolunda başlarına gələnlərə görə nə ruhdan düşmüş, nə zəifləmiş, nə də (düşmənə) boyun əymişlər. Allah səbir edənləri sevir. Onların dedikləri ancaq: "Ey Rəbbimiz! Günahlarımızı və əməllərimizdə həddi aşmağımızı bizə bağışla; qədəmlərimizi sabit et və kafir qövmə qələbə çalmaqda bizə yardım et!"– olmuşdur. Beləliklə, Allah onlara həm dünya mükafatını, həm də gözəl axirət mükafatını verdi. Allah yaxşı iş görənləri sevir. (Ali-İmran surəsi 146-148)**

## ƏLAVƏ BÖLMƏ: TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu

fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu

mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini

göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül

nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

**Göz və qulaqdakı texnologiya**

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla

beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox

düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya

iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**
**Həqiqətən, Sən bilənsən, müdriksən!**
**(Bəqərə surəsi, 32)**

Həyatınızda hər hansı bir şeyi əldə etmək üçün cəhd edib əmək sərf etmişsiniz. Təhsil həyatınızı düşünün. O dövrdə ən çox düşündüyünüz böyük ehtimalla tez-tez qarşılaşdığınız imtahanlardır. Bunların içində ən əhəmiyyətlisi isə, şübhəsiz ki, universitet imtahanıdır. Bəzi gənclər universitet imtahanını həyatının dönüş nöqtəsi hesab edir. Çünki gələcəyi necə

planlaşdıracaqlarını bu üç-dörd saatlıq imtahanın nəticəsində təyin edəcəklərini düşünürlər. Buna görə də illərlə çalışır, yuxusuz qalır, bir çox ictimai fəaliyyətdən, tətil və əyləncədən uzaq durub, sadəcə dərs oxuyurlar. Yeganə məqsədləri istədikləri universitetə qəbul olmaqdır. Bu məqsədə çatmaq üçün böyük bir səbir və əzm göstərirlər.

Halbuki, dünya həyatında əldə edilən bütün mənfəətlər keçicidir. Amma bundan başqa, bir də əsla itməyən, əsla tükənməyən gözəlliklərin, sonsuz nemətlərin olduğu və insanın əbədiyyətə qədər qalacağı gerçək bir həyat vardır.

İnsanın sonsuz axirət yurdunu qazanmaq üçün sınandığı yer dünya həyatıdır. İnsan yer üzündə olduğu müddət ərzində imtahan olunur və bu mövzuda göstərdiyi cəhdlə sınanır. Həyat Allah`ın bizləri sınamaq və öyrətmək üçün yaratdığı keçici bir müddətdir. İnsan bu müddət ərzində düşünmək, Rəbbimizi tanımaq, Onun hökmlərinə tabe olmaq və sadəcə Onun razılığını axtarmaqla məsuldur.

**YAZIÇI HAQQINDA:** Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah`ın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir. 67 dilə tərcümə edilən 250 əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən izlənilir.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allah`ın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.